YENİ MÜSAVAT

www.musavat.com

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23-25 sentyabr 2023-cü il Şənbə № 170 (8306) Qiyməti 60 qəpik

Xəbər

Xırdalanda 4-cü müəmmalı hadisə - daha bir qız canına qıydı

yazısı səh.13-də

YEVLAX GÖRÜŞÜNÜN DAVAMINDA NƏLƏR OLACAQ: PROSES SÜRƏTLƏNİR - REİNTEQRASİYA ŞƏRTLƏRİ...

Azərbaycan dövləti Qarabağ ermənilərinə yardım yolladı; STM icraçı direktorundan Qarabağ ermənilərilə bağlı ilginc təkliflər; **politoloq:** "Prezident İlham Əliyev erməni şovinizminə və separatizminə son verdi"



yazısı səh.5-də

Gündəm

Prezidentin Cənubi Qafqazın gələcəyi ilə bağlı "Yol xəritəsi"- alternativ yoxdur



Hikmət Babaoğlu: "Azərbaycan dövlət başçısı Cənubi Qafqazda sülh yaratma istəyində qətiyyətlidir və bunun üçün əməli tədbirlər həyata keçirir"

yazısı səh.7-də

Azərbaycan hərbi xərcləri artırdı - Dünyanın düşmənə göz dağı 57-ci ordusu

yazısı səh.3-də

Sosial iqtisadi inkişafa dair 5 milli prioritet - cəmiyyət nə qazanacaq...

yazısı səh.11-də

Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Bakıya gələcək

yazısı səh.2-də

ABŞ dolları baha, Türkiyə lirəsi ucuz - Azərbaycan manatı?

yazısı səh.12-də

Vergi yükü azaldılacaq - kimlərə şamil olunur?

yazısı səh.15-də

Bu il Azərbaycana ötən illə müqayisədə 33,8 faiz çox əcnəbi gəlib

yazısı səh.15-də

Rusiya benzin ixracını məhdudlaşdırdı - Azərbaycana hansı təsirləri olacaq?

yazısı səh.10-da

Azərbaycan dövlət investisiyalarını özəl investisiyalarla əvəzləmək istəyir - mexanizm

yazısı səh.13-də

İran nüvə silahına sahiblənsə... - müsəlman dövlətindən Tehrana xəbərdarlıq

yazısı səh.14-də

Fransa və "bacısı"nın BMT TŞ-də növbəti fiaskosu - Mirzoyan zaldan qaçdı...


Parisin təşəbbüsü ilə çağırılan Qarabağ dinləmələrində İrəvanın arzusu yenə gözündə qaldı

yazısı səh.9-da



Flora Qasımova:
"İndi Xankəndini qarış-qarış gəzmək istəyərdim, evimizin ünvanı isə..."

yazısı səh.4-də



Paşinyan üçün kritik 100 gün - əgər ilin sonunadək...

yazısı səh.6-da



Vüqar Bayramov:
"Büdcə daxilolmalarında fərqli sektorların payının artmasını müşahidə edirik"

yazısı səh.11-də



Əbdüləziz bin Osman əl-Tuveycri

ISESCO-nun sabiq Baş direktoru Prezident İlham Əliyevi təbrik edib

ISESCO-nun sabiq Baş direktoru, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Əbdüləziz bin Osman əl-Tuveycri Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

Təbrik məktubunda deyilir:

"Zati-aliləri!

Qarabağda həyata keçirilən tədbirlər nəticəsində terrorçu silahlı birləşmələrin təslim olması və tərk-silah edilməsi ilə əlaqədar Sizə təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Bu yeni qələbə regionda sülh və sabitliyin bərqərar olunması baxımından mühüm addımdır.

Uca Allaha Sizi və Azərbaycan xalqını qoruması üçün dua edirəm.

Zati-aliləri, Sizə olan dərin hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm".



Ayxan Hacızadə: "Azərbaycan Qarabağ bölgəsinin erməni əhalisinə dəstək verəcək"

"Azərbaycan Qarabağ bölgəsinin erməni əhalisinə dəstək verəcək".

Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə "Al-Jazeera" telekanalına müsahibəsində deyib.

O qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Azərbaycan ordusunun mövqelərinin sistematik atəşə tutulmasının artması, ərazilərimizin minalanmasının davam etdirilməsi Azərbaycan Silahlı Qüvvələri tərəfindən Qarabağda yaradılmış separatçı və marionet rejimin nümayəndələrinə qarşı lokal antiterror tədbirlərinə səbəb olub.

A.Hacızadənin sözlərinə görə, Ermənistanın baş naziri Nikol Paşinyan özü bəyan edib ki, bu antiterror tədbirləri zamanı Azərbaycan Qarabağdakı erməni sakinlərə zərər verməyib: "Qarabağ bölgəsi həmişə Azərbaycanın ayrılmaz hissəsi olub. Azərbaycanın bütün etnik azlıqları ölkəmizdə həmişə mehriban şəraitdə yaşayıblar. Azərbaycan çoxmillətli ölkədir, tarix boyu ermənilərlə azərbaycanlılar həmişə birgə yaşayıblar. Ölkəmiz Qarabağ ermənilərinin reinteqrasiyasının həyata keçirilməsini təmin edəcək"./report

Aİ-nin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Bakıya gələcək



Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə Xüsusi Nümayəndəsi Toivo Klaar yaxın günlərdə Bakıya gələcək.

Bu barədə APA-ya Aİ-nin Xüsusi Nümayəndəsinin ofisindən bildirilib.

"Aİ-nin Xüsusi Nümayəndəsi Toivo Klaar bu gün İrəvanda intensiv yüksək səviyyəli məsləhətləşmələr aparır və yaxın günlərdə oxşar məsləhətləşmələr üçün Bakıya da səfər edəcəyi gözlənilir", açıqlamada qeyd olunub.

Onun İrəvan səfərindən sonra Bakıya gələcəyi gözlənilir.

Bəhruz Məhərrəmov: "Fransa, Almaniya və Aİ Cənubi Qafqazda maraqlarını təmin etməyə çalışır"




BMT Təhlükəsizlik Şurası Azərbaycanla bağlı söz haqqını çoxdan itirib. Bəzi daimi üzvləri üçün maraq kəsb edən məsələlər üzrə qətnamələri saatlar içində icra olunan BMT Təhlükəsizlik Şurası Azərbaycanın ərazi bütövlüyünü ehtiva edən 4 qətnaməni 27 il ərzində icra etmədi. Azərbaycan özü hərbi-siyasi yolla qətnamələrin icrasına nail oldu.

Bunu APA-ya açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov bildirib.

Bəhruz Məhərrəmov deyib ki, son 3 ildə bir ovuc separatçı üçün 4 dəfə toplanan Təhlükəsizlik Şurası 30 il 1 milyon məcburi köçkünün iztirabını görməzdən gəldi: "Öz evindən işgəncə və təzyiqlər altında, zorakılıqla qovulan 350 minlik Qərbi azərbaycanlını 35 ildir görməzdən gəlir. Mina terroru ilə bağlı az qala hər il qətnamələr qəbul edən, Oslo, Ottava, Brüssel Konvensiyalarını dildə təşviq edən BMT məhz Ermənistanın dövlət səviyyəsində işğal və təcavüzkar siyasəti nəticəsində Azərbaycanın dünyanın mina ilə ən çox çirklənən bölgəyə çevrilməsindən danışmır. Saxtakar şəkildə "təhlükəsizlik və insan haqları" iddialarını utanmazcasına dünyanın ən ali masasına daşıyanlar son 3 ildə 300-dən çox mina qurbanımızı görmək istəmir".

Deputat qeyd edib ki, etnik separatizm və terroru açıq formada müdafiə edən Avropa İttifaqı, Fransa və Almaniya kimi subyektlər 3 gün öncə 8 vətəndaşımızın məhz bu terrorçuların mina terrorunun qurbanına çevrilməsi barədə bir kəlmə də danışmır: "Amma faşizmin beşiyi olmuş Almaniya, Afrika və Asiyada soyqırımlar törətmiş əli qanlı kolonist Fransa və radikal xristian klubu Avropa İttifaqı Azərbaycana haqq və hüquqdan dərs keçmək niyyətinə düşüb. Təbii ki, Azərbaycan Prezidenti tarixi gözəl bilir, eyni zamanda da hər kəsə yerini bildirməyi də bacarır. Ən azı son 3 ildə mənfur Fransa-Almaniya-Avropa İttifaqı üçlüsü bunu əyani olaraq görüb. Bu mənada ötən gün BMT Təhlükəsizlik Şurasında müzakirələr beynəlxalq hüquq adına utanc idi. Ermənistan da bilməlidir ki, nə Fransa, nə Almaniya, nə də Avropa İttifaqını əslində Ermənistan və separatçılar maraqlandırmır. İclasda xüsusi fəallıq edən subyektlər əslində separatizmin kölgəsində, yeni geosiyasi situasiyada Cənubi Qafqazda təzyiq mühiti yaradaraq öz maraqlarının təmin edilməsinə çalışırlar ki, bu da ilk növbədə elə təşəbbüskarların özləri üçün qəbuledilməz presedentlərə yol açacaq".



DİN vətəndaşlara xəbərdarlıq etdi

Sosial media, elektron poçt və ya SMS vasitəsilə göndərilən "Linkə keçid et, hədiyyə qazan" və fişinq məqsədi daşıyan saxta internet saytlarından ehtiyatlı olun. "Hədiyyə qazandınız" kimi anidən gələn gözlənilməz mesajlara inanmayın!

Bu barədə Musavat.com-a Daxili İşlər Nazirliyindən məlumat verilib.

"Belə linklərə kliklәməyin. Şəxsi məlumatlarınızı paylaşmayın. Heç bir ödəniş etməyin" - məlumatda qeyd olunub.

❑ Musavat.com

Ermənipərəst senator Menendezə qarşı daha bir korrupsiya ittihamı irəli sürülüb

ABŞ-ın Nyu Cersi ştatından olan ermənipərəst senator Robert Menendezə qarşı federal korrupsiya ittihamı irəli sürülüb.

APA xəbər verir ki, bu barədə "New York Times" məlumat yayıb.

Bildirilib ki, Senatın Xarici əlaqələr komitəsinə rəhbərlik edən 69 yaşlı demokrat siyasətçiyə qarşı irəli sürülmüş ittiham aktı Manhettendə federal prokurorlar tərəfindən aparılmış uzun təhqiqatlardan sonra elan edilib.



Manhetten federal məhkəməsində açılmış ittiham aktında senatorun arvadı Nadine Menendez və Nyu Cersidən olan tanınmış daşınmaz əmlak alqı-satqısı ilə məşğul olan Fred Daibesin, həmçinin Menendezin uzun müddətli dostu, Nyu Cersidə halal ət sertifikatı biznesinin təsisçisi Uael Hana və biznesmen Jose Uribenin adları da qeyd edilib.

Bildirilib ki, Menendez uzun müddətdir ki, federal təhqiqat altında olub. O, daha əvvəl təhqiqatçılara yardım etmək niyyətində olduğunu və məsələnin "uğurla bağlanacağına" əminliyini ifadə edib.

İttiham aktının həm Vaşinqtonda, həm də Nyu Cersidə əks-səda yaradacağına əminlik ifadə olunub.

Qeyd edək ki, bu, senator Menendezə qarşı irəli sürülmüş ilk ittiham deyil. O, daha əvvəl 2015-ci ildə də Nyu Cersili zəngin göz həkimindən Karib adalarında lüks tətillər, seçki kampaniyaları töhfələri də daxil olmaqla, 1 milyon dollar dəyərində "hədiyyələr" almaqda ittiham edilib.

Senatda erməni lobbiçiliyi ilə də məşğul olan Menendez Azərbaycana qarşı qərəzli və əsassız ittihamlar irəli sürməsi ilə tanınır.

YENİ MÜSAVAT
N 170 (8306) 23 sentyabr 2023

Azərbaycan hərbi xərcləri artırdı - Dünyanın düşmənə göz dağı 57-ci ordusu

Arzu Nağıyev: "Ordumuzun Türkiyə ordu modelinə keçidi uğurla davam edir"

2024-cü ildə Azərbaycanda müdafiə və təhlükəsizlik xərclərinin 6 milyard 421 milyon manat olması nəzərdə tutulur. Maliyyə Nazirliyindən verilən məlumata görə, bu, 2023-cü ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 6 % çoxdur.

Bildirilib ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edildikdən sonra ölkəmiz tərəfindən bölgədə ədalətli və davamlı sülhün bərqərar olunması və iki ölkə arasında münasibətlərin normallaşdırılması məqsədilə bir sıra siyasi-diplomatik xarakterli addımlar atılıb. Lakin qeyd olunub ki, Ermənistan hökumətinin sülh prosesinə qeyri-konstruktiv yanaşma sərgiləməsi, müşahidə olunan separatizm meyilləri və bölgədə sabitlik və əməkdaşlıq mühitinin formalaşması ilə bağlı cəhdlərin nəticəsiz qalması arzu olunan sülh və sabitliyə qarşı təhdidlər yaradır.

"Bu baxımdan, ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da gücləndirilməsi məqsədilə ordunun maddi-texniki təchizatının müasirləşdirilməsi və hərbi potensialın artırılması ilə bağlı tədbirlərin davam etdirilməsi üçün 2024-cü ilin dövlət büdcəsində 3 milyard manat maliyyə təminatının yaradılması nəzərdə tutulur", - nazirlikdən bildirilib.

Azərbaycanın öz hərbi xərclərini artırması təbiidir. Nə qədər ki, Ermənistan sülh müqaviləsi imzalamaqdan yayınır və revanşist hisslərdən qurtulmayıb, ordumuzun daha da güclənməsi prioritet olacaq. Bu mənada artan xərclər eyni zamanda İrəvana özünü yığışdırmaq üçün növbəti siqnaldır.

Xatırladaq ki, Ermənistanın bu il üçün hərbi büdcəsi rekord həcmdə - 1 milyard dollar həcmində müəyyənləşib. Bu isə Azərbaycanla müqayisədə dəfələrlə azdır. İrəvan silahlanma yarışında Bakı ilə ayaqlaşması, sadəcə, mümkünsüz. Dünyanın 57-ci ordusuna malik Azərbaycan qardaş Türkiyə başda olmaqla dost-tərəfdaş dövlətlər hesabına öz hərbi qüdrətini daha da artıracaq.

Bəs hazırda silahlı qüvvələrimizdə ən çox diqqət yetirməli və islahat aparmalı olduğumuz sferalar hansılardır və NATO tipli orduya keçid nə vaxt tamamlanacaq?

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, deputat Arzu Nağıyev "Yeni Müsavat"a deyib ki, Türkiyə ilə hərbi müttəfiqliyimizin ən yüksək səviyyəyə qalxması Azərbaycanın peşəkar orduya, NATO və ya Türkiyə tipli orduya keçidini sürətləndirib: "Möhtərəm cənab Prezident İlham Əliyev də çıxışlarında Türkiyə ordusunun kiçik modelini quracağımızla bağlı fikirlər səsləndirib. Şuşa Bəyannaməsi ilə bu yöndə əlavə fürsətlər açıldı. Çünki bəyannaməyə görə, ölkəmizə qarşı hər hansı üçüncü dövlətin hərbi təhdidi, müdaxiləsi olarsa Azərbaycan və Türkiyə birgə mübarizə apara bilərlər. Bu da özlüyündə iki ordunun mütəmadi birgə hərbi təlimlər keçməsini, Azərbaycanın NATO-da ikinci güclü ordu olan türk silahlı qüvvələrinin təcrübəsinə yiyələnmək imkanlarını genişləndirib. Bu baxımdan Azərbaycanın NATO standartlarına uyğun ordu quruculuğu işi bundan sonra daha intensiv, sistemli və



kompleks şəkil alıb. Artıq sovet ordu sisteminin yanaşmalarından tədricən imtina olunur. Bu gün Azərbaycan Ordusu dövlətimizin təhlükəsizliyini tamamilə təmin etmək qüdrətindədir və bunu döyüş meydanında sübut edib. Azərbaycan ordusu qarşısına qoyulan tapşırıqları dəqiq yerinə yetirmək məharətini 44 günlük müharibədə də, 1 sutkadan az davam edən antiterror əməliyyatı zamanı da göstərdi. Bununla belə bundan sonra da ordunun daha da təkmilləşdirilməsi istiqamətində addımlar atılacaq. Silahlı qüvvələrimizdə müsbət dəyişikliklər olacaq və bu yenilik Türkiyə modeli ilə yaxın olmalıdır".

Deputat bildirib ki, bu gün eyni zamanda müdafiə sahəsində və müdafiə sənayesi sahəsində də Azərbaycanla Türkiyə müdafiə nazirlikləri arasında sıx əməkdaşlıq mövcuddur: "Şanlı Vətən müharibəsindən sonra Azərbaycan Silahlı Qüvvələrinin tərkibində dağ komando birləşmələri yaradılıb, Türkiyə modeli ilə bağlı bir çox işlər görülüb. Bəllidir ki, həm taktiki, həm silahlanma, həm döyüş qabiliyyətinə görə, ümumiyyətlə, bütün parametrlər üzrə Türkiyə ordusu dünyanın ən mükəmməl ordularından sayılır. Türk ordusu NATO-da güc baxımdan 2-ci ən güclü ordudur. Son illərdə isə Türkiyənin hərbi sənayesinin sürətlə inkişafı Türk ordusunu daha da gücləndirib. Azərbaycan Ordusunun Türkiyə ordusu modelinə keçidi üçün artıq bir sıra addımlar atılıb və proses davam edir. Təşkilati-ştat strukturu təkmilləşdirilərək Quru Qoşunları Komandanlığı və yeni hərbi birliklər, komando briqadaları yaradılıb. Azad edilmiş ərazilərdə dislokasiya olunmuş bölmələrin əməliyyat və döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, həmçinin xüsusi şəraitdə döyüş tapşırıqlarının yerinə yetirilməsi məqsədilə əməliyyat hərbi hissələri yaradılıb. Komandoların Türkiyədə müvafiq hazırlıq kurslarını keçməsi təmin edilib".

Deputat bildirib ki, Azərbaycan Ordusunda yeni yaradılan qurum - əməliyyat komando briqadaları istənilən tapşırıqları yüksək səviyyədə yerinə yetirə biləcək hərbi qulluqçulardan ibarətdir: "Onlar istənilən zaman kəsiyində və şəraitdə - quruda, dənizdə və havada döyüşmək üçün mütəmadi təlimlər keçirlər. Azərbaycan Ordusunun təkmilləşdirilməsi üçün gərəkən bütün addımlar atılır. Azərbaycan Ordusunun Türkiyə ordu modelinə keçidi uğurla davam edir".

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
"Yeni Müsavat"

S(arsaq)lar üçün yol birtərəfli olacaq! - Ya cəhənnəmə, ya da...

Qarabağda 35 ildir nəzarətsiz qalan "boz zona"nın "fatihəsi" verilmiş sayıla bilər. BMT TŞ-də ötən gecə Fransa-Ermənistan həyasız "bacıları"nın biabırçı fiaskosu, Xankəndi-Şuşa yolunda ermənilərin "qələbə tankı"nın de-montajı bu xüsusda son akkordlar idi.

İnsanlığa qarşı ideologiyanın, faşizmin ayrı sonluğu ola bilməzdi. Olmadı da. Hərgah, görüləsi işimiz çoxdur. Və təbii ki, erməni xalqı ilə yox, onu girov saxlamağa davam edənlərlə, erməni faşizminin qalıqları ilə. İnşallah, bunu da bacaracağıq...

"Bütün "kartlar" Bakının əlindədir. Amma hələ hər şey bitməyib. Təəssüf ki, Qarabağsız da Ermənistanla Azərbaycan arasında kifayət qədər fikir ayrılığı var".

Bunu rusiyalı politoloq Sergey Markedonov Azərbaycanın Qarabağdakı 24 saatlıq antiterror tədbirləri ilə bağlı deyib.

Razılaşmamaq çətindir. Körpəlikdən erməni beyninə yeridilmiş "miatsum" virusu, iki əsrdir Türk qanına susamış, Türkə nifrəti azalmayan alçaq erməni lobbisi və onun çörəyini yeyən bişərəf Qərb siyasətçiləri qaldıqca, Allaha, peyğəmbərə deyil, Şeytana qulluq edən erməni katolikosları var olduqca iki xalqın barışı da əlçatmaz olacaq. Hərçənd "çörəkləri" qan-qadadan, terrordan çıxanların arealını xeyli məhdudlaşdırmışıq. "Şeytan yuvası"ndakı "artsax" adlı üfunətli mənbə də tədricən, lakin inamlı və davamlı şəkildə qurudulur, yeri "dezinfeksiya" edilir...

Başqa bir rusiyalı analitik və hərbi ekspert İqor Korotçenko da haqlıdır deyəndə ki: "On onilliklər boyu Qarabağdakı erməni separatizminə informasiya, media və siyasi dəstək mövzusunda yüzlərlə təbliğatçı qidalanırdı, çoxmilyonluq büdcələri mənimsəyib yeyirdilər. İndi - bitdi! Hazırda çoxları üçün bu, şokdur, təməllərin sarsılması, şəxsi faciədir. İndi necə yaşayacaqlar?"

Sual, əlbəttə, ritorikdir. Nə qədər gec deyil, qayıtsınlar



haqq yoluna. Nəhayət, adam olsunlar. Yaradana üsyan eləməsinlər. İnsan göz yaşları və faciələri üzərində varlanmaq, qazanc götürmək, ailə saxlamaq dünyanın ən şərəfsiz, ən iyrənc peşəsidir. Buna tüpürüb də halal ruzi dalınca getsinlər...

Separatçılıq və onun doğma "qardaşı" terrorla mübarizəmiz isə bişəkk, bitməyib, davam edəcək. Ona da şübhə yox ki, Azərbaycan dövləti səbir və təmkinlə Qarabağa dair "yol xəritəsi"ni qabağa aparacaq. Yeri gələndə bundan ötrü bir daha radikal üsula - gücə al atacaq. Çünki Qarabağda terrorizmin kökünün tezliklə kəsiləcəyini düşünəcək qədər sadəlövh deyilik.

Fəqət, xaricdən gətirilən muzdlular hesabına terrorçuların sayca çoxalması daha mümkünsüz. Yollar, bənd-bərələr bağlı, ölkəyə giriş qapılarının açarları öz əlimizdə. Qalır potensial quldur-banditlərin bu sərt gerçəyi boş başları ilə anlaması...

Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bu gün "Röyters"ə açıqlamasında silahını təhvil verən Qarabağ sakinləri üçün amnistiyanı istisna eləməyib. Aylar öncə bunu İlham Əliyev özü bildirmişdi. Hətta ABŞ Dövlət Departamenti Bakının bu jestini yüksək qiymətləndirmişdi. Amma və lakin....

"Biz keçmiş döyüşçülərə münasibətdə belə, əgər onları bu cür təsnif etmək olarsa, amnistiya ehtimalını nəzərdən keçiririk. Bakı silahlarını təhvil verən "Qarabağ silahlı birləşmələri"nin üzvlərinə ölkəni tərk etməyə icazə verəcək. Hazırda isə biz görürük ki, bəzi ayrı-ayrı qruplar və zabitlər bizim şərtlərimizi qəbul etməyəcəkləri və müqavimət göstərməkdə davam edəcəkləri barədə açıq bəyanatlar verirlər" - Hacıyevin sözləridir.

Bu boyda humanizm qarşılığında müqavimət? Meşələrə çəkilib dirənişi davam etdirmək? Axmaqlar. Hansı əsrdir? Amma yenə özləri bilər. Torpağımızda it kimi gəbərmək, ucuz ölümə tuş gəlmək istəyirlərsə, özləri haqda suisid hökmü çıxarıblarsa, onda buyursunlar. S(arsaq)lar üçün yol birtərəfli olacaq! - Ya cəhənnəmə, ya da Ermənistana. Biristiqamətli "bilet"...

Ancaq bir azca ağılları olsa, Bakının uzatdığı əli İrəvanda dərhal sıxar, Xankəndində isə amnistiya təklifini gözlərinə təpərlər. Çünki növbətisi olmayacaq. Zira, Azərbaycan özünə hörmət edən dövlətdir, Afrikanın "banan ölkəsi" yox.

Biz humanist olduğumuz qədər qətiyyətimizi, sərt üzümüzü də artıq bütün dünyaya göstərmişik. Dəfələrlə. Meşələrə çəkilib özünü qurda-quşa yem eləmək istəyən separatçı tör-töküntüləri üçün hələ ki, yol açıqdır. Amma o da müvəqqəti! Zaman gedir. Saat işləyir: tik-tak...



❑ **Zahid SƏFƏROĞLU**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 170 (8306) 23 sentyabr 2023

"İndi Xankəndini qarış-qarış gəzmək istəyərdim, evimizin ünvanı isə..." - Flora Qasımova

"Xankəndidəki o abidə də götürülməlidir, guya tarixən yalnız erməni kişisi, qocası orada yaşayıb"

Azərbaycanın Xankəndi qapısı açıldı. Separatizmin belini qıran Ordumuzun lokal xarakterli antiterror tədbirlərindən sonra yeni mərhələ başlandı: erməni sakinlərin nümayəndələri Yevlaxa görüşə gəldilər, problemlərini dilə gətirdilər, ertəsi gün Bakı Qarabağın erməni əhalisinə humanitar yardım göndərdi, Prezidentin köməkçisi Hikmət Hacıyev isə silahı yerə qoyan separatçılarla bağlı amnistiyanın nəzərdən keçirildiyini açıqladı.



"Bizim ailəyə hörmət olub, hətta evimizi yandırmaq istəyəndə qonşular qoymadılar, indisə birgəyaşayış çox çətin olacaq"

Beləliklə, xanın şəhərinə doğru iri addımlarla yaxınlaşmaqdayıq. Bu isə gələcəkdə Xankəndidən olan azərbaycanlıların da öz ev-eşiyinə qayıtmaq, birgəyaşayış məsələlərini aktuallaşdırır. "Yeni Müsavat" olaraq bu mövzuda Azərbaycanın Milli Qəhrəmanı, Birinci Qarabağ müharibəsinin şəhidi Şirin Mirzəyevin həyat yoldaşı, Xankəndidən olan sabiq millət vəkili, bu şəhərdə dünyaya gözünü açıb, burada uşaqlığı keçən, burada müxtəlif vəzifələrdə çalışan hörmətli Flora Qasımova ilə söhbətləşmişik. F.Qasımovanın qəzetimizə müsahibəsini təqdim edirik:

- Flora xanım, Ordumuz separatçı-quldur dəstələrini bir sutka içində diz çökdürdü və təslim oldular. Bundan sonra əminliklə söyləmək olar ki, Xankəndiyə olan qapımız açıldı?

- Əvvəla, Ordumuz lokal antiterror tədbirini məcbur qalaraq keçirdi. Üç ildir ki, 10 noyabr sənədinin iki şərti qalmışdı və icra edilmirdi. Həmin üçtərəfli razılaşmada Azərbaycanın öhdəliyi Laçın yolu idi və onu da yerinə yetirmişdik. Ancaq erməni tərəfinin görməli olduğu iki öhdəlik vardı: Zəngəzur dəhlizinin açılması və Qarabağda qalan 10 minlik ordunun çıxarılması. Sizcə, 10 minlik ordu nə deməkdir? Dünyanın hansı ölkəsində ikinci belə hal var? Onlar dünya ictimaiyyətini aldatmaq istəyirdilər. Amma biz bu addımlarımızla sübut etdik ki, ərazilərimizdə Ermənistan dövlətinə aid 10 minlik hərbi qüvvə qalıb. O baxımdan təbii ki, antiterror tədbiri başlayanda çox sevindim. Nəzərə alaq ki, 44 günlük müharibədən sonra qanunsuz silahlı birləşmələrin dəfələrlə mövqelərimizi atəşə tutması, diversiya fəaliyyəti olmuşdu və nəticədə 2020-ci il, 10 noyabrdan bəri 300-dən çox insan mina qurbanı olub. Amma onlar tarixdən dərs çıxarmadılar. Tarix boyu da onları aldadıblar ki, sizə guya ikinci "erməni dövləti" qurulacaq. Bu da nəticəsi... Axı beynəlxalq hüquq, tarixi həqiqət bizim tərəfdədir, siz nəyə nail ola bilərdiniz? İndi də nəzarətimizdədirlər. İstəsək işığı, suyu, qazı, interneti kəsə bilərik. Əlbəttə ki, bunu etmək fikrində deyilik. Sadəcə, demək istəyirəm ki, hər şey əlimizdədir, Qarabağda necə "dövlət" qura bilərsiniz? Yəni belə yaşamaq olar?

- Hətta BMT Təhlükəsizlik Şurasında son iclasda da Azərbaycana qarşı sənəd qəbul edilmədi. İndi nəyə ümid edirlər?

- Birincisi, Bakıdan Xankəndiyə göndərilən humanitar yükləri qəbul ediblər. İkincisi, antiterror tədbirləri ilə bağlı BMT-də məsələ qaldırılanda demək lazım idi ki, 27 il BMT qətnamələri icra olunmadı, indi nədən danışırsınız? Daha nə qədər dözmək olardı? Biz 44 gün ərzində BMT-nin 4 qətnaməsini icra etmişik, sentyabrın 19-da isə üçtərəfli bəyanatın 4-cü bəndini özümüz yerinə yetirmişik. İnşallah, 9-cu müddəanı da, yəni Zəngəzur dəhlizinin açılmasını da özümüz reallaşdıracağıq. Əgər Ermənistan bu öhdəliyini yerinə yetirməkdən də imtina etməyi uzatsa, bunu da Azərbaycan yoluna qoyacaq. Çünki üç dövlət rəhbərinin imzaladığı razılaşma var, əgər ermənilərin ağlı başına gəlməsə, Zəngəzur dəhlizini öz gücümüzlə açacağıq. Üstəlik, antiterror tədbirləri zamanı mülki erməni əhalisi qorundu. Biz əvvəlcədən xəbərdarlıq etdik ki, dinc insanlar hərbi obyektlərdən uzaq olsunlar, evlərdə qalsınlar, vərəqələr də paylandı... Ona görə də 27 il icra edilməyən BMT qətnamələrindən sonra hansı üzlə Təhlükəsizlik Şurasında deyə bilərlər ki, antiterror tədbirini dayandırın?! Biz onsuz da mülki əhalinin hüquqlarının qorunmasına təminat vermişik.

- Ondan sonra yayılan görüntülər də paradoksal idi: rus hərbçiləri mülki ermənilərin çadırlara yerləşdirir və mənim gözümün qabağına bizim insanların işğal zamanı yurd-yuvasından necə qaçqın düşmələri gəlirdi...

- Bəli, onlara 1988-ci illərin, 90-cı illərin kadrlarını göstərmək lazımdır. Bizim nə yaşadıqlarımızı, nələr çəkdiklərimizi görməlidirlər. Ümumiyyətlə, antiterror tədbiri Azərbaycanın, onun Ordusunun qüdrətini dünyaya bir daha nümayiş etdirdi, gücümüzü göstərdik, nüfuzumuz daha da artdı. Ona görə də BMT artıq nüfuzdan düşmüş, sözü keçməyən qurumdur. Onlardan soruşmaq lazımdır ki, ora niyə yığışmışdınız? Təhlükəsizlik Şurasının beş daimi üzvündən üçü həm də keçmiş Minsk qrupunun həmsədr ölkələridir. Amma problemin həlli üçün nə ediblər? Odur ki, bir kənara çəkilsinlər, hansı ölkələr obyektivdirsə, onlar daimi üzv olsunlar.

- Bəs, Flora xanım, bundan sonra necə olacaq? Çünki görüləcək iş çoxdur, Xankəndi və ətraf ərazilərdə strukturlarımız olmalıdır, inteqrasiya prosesi kifayət qədər çətindir...

- Azərbaycan həmişə deyib ki, Qarabağda yaşayan erməni əhalisinin sosial-iqtisadi problemlərini həll etməyə hazırdır. Artıq humanitar yardım göndərilib, davamı gələcək, ermənilərin nümayəndələri ilə növbəti görüşlər də keçiriləcək. Ancaq bütün məsələləri həll etmək üçün ilk növbədə separatçılar, xalqımıza qarşı vəhşilik edənlər cəzalarını çəkməlidirlər. Ondan sonra sakitləşəcəklər və biz ora daxil olacağıq. Axı hansı dövlət dözərdi ki, ərazisində başqa ölkənin 10 min hərbçisi olsun? Kim dözərdi ki, onun məzarlıqları, abidələri dağıdılsın? Separatçılar artıq bunu başa düşürlər. Amma sadə erməni əhalisi fikirləşir ki, vaxtilə başımıza gətirdikləri müsibətləri, onların separatçı cinayətkarlarının etdiklərini yada salıb eynisini onlara yaşada bilərik. Deyirlər ki, görün biz neyləmişik? Yəni qorxurlar ki, biz də onlara edərik. Amma belə deyil, onlarla yaşayacağıq. Sadəcə, üzümüzə baxa bilməyəcəklər. Yəni birgəyaşayış çətin olacaq.

- Yeri gəlmişkən, Xankəndi-Şuşa yolunda Milli Qəhrəmanımız Aqarunovun vurduğu erməni tankını abidəyə çevirmişdilər, əsgərlərimiz onu götürdülər, bundan sonra "Biz və bizim dağlar" abidəsi də Xankəndidən götürülməli deyilmi?

- Əvvəla deyim ki, Qarabağ ermənilər 1967-ci ili yada salsınlar. O vaxt da Ermənistana birləşmək tələbi ilə ayağa qalxdılar və cəzalarını verdik. Bundan sonra başlarını aşağı salmalıdırlar ki, sülh içində yaşayaq. Son əməliyyat da onlara dərs olmalıdır. Həmin abidəyə gəlincə, o vaxt qoyulanda uzaqgörənlik olmadı. O vaxtkı rəhbərliyin səhvləri idi. Guya tarixən yalnız erməni kişisi, qocası orada yaşayıb. Xankəndidə Xan bağı qəsəbəsi olub. Ümumən Xankəndi xanlar tərəfindən strateji məkan kimi salınmışdı. Onlar həmin Xan bağında dincəlirdilər. İlk olaraq Xanın ailəsi ora yerləşib. Həmin Xan bağında o qədər meyvə var idi ki...Bəs ermənilərin Xankəndidə nəyi vardı?! Xan bağında onların heç kilsəsi yoxuydu. Bir alban kilsəsi vardı, ibadət üçün ora gedirdilər. Yəni məndən olsa həmin ermənilərin qoyduğu abidəni götürsələr yaxşıdır.

- Flora xanım, hər halda ən böyük arzunuz indi Xankəndiyə getmək, o yerləri qarış-qarış gəzmək olar...

- Əlbəttə! Mənim uşaqlığım orada keçib. Sonra müxtəlif vəzifələrdə işləmişəm. Mənim ailəmi xankəndililər çox yaxşı tanıyırlar. Təbii ki, indi Xankəndiyə gedib şəhəri qarış-qarış gəzmək istəyərdim. Yadımdadır ki, Milli Məclisin deputatı olanda Xankəndi azərbaycanlılarının sayı məsələsini qaldırmışdım. O vaxt iş "Qaçqınkom"a tapşırılmışdı. O zaman məlum olmuşdu ki, Xankəndidən 12 mindən çox azərbaycanlı var. Amma ümumən 15 mindən çox olub, sadəcə, xaricə gedənlər var. Sizə deyim ki, bizim ev Xankəndidə Spandaryan küçəsi, 2 A ünvanındadır. Hətta ev nömrəmiz də yadımdadır. O küçədə tək azərbaycanlı ailəsi biz idik. Uşaq vaxtı məhəlləyə çıxıb oynayardıq. Amma bizə münasibət çox yaxşı idi. Misal üçün milli bayramlarda qonşularla bir-birimizə pay verərdik, xeyir-şərdə iştirak edərdil. Yəni bizim ailəyə hörmət olub. Hətta evimizi yandırmaq istəyəndə qonşular qoymadılar, bankda pulumuz batanda atam gedib pulu ala bildi. Çünki bizim ailəyə, atama elə hörmət var idi. Sadəcə, indi birgəyaşayış çox çətin olacaq. Xocalını necə unuda bilərik? O körpə balaların səsini necə unutmaq olar? Ortalıqda böyük cinayətlər, vəhşiliklər var...

❑ **Emil SALAMOĞLU,**
"Yeni Müsavat"

Yevlax görüşünün davamında nələr olacaq: proses sürətlənir - reinteqrasiya şərtləri...

Azərbaycan dövləti Qarabağ ermənilərinə yardım yolladı; STM icraçı direktorundan Qarabağ erməniləri ilə bağlı ilginc təkliflər

Azərbaycan növbəti dəfə proseslərdə söz sahibi olduğunu nümayiş etdirdi. Son günlərədək danışıqlardan yayınan Qarabağdakı erməni separatçılar aldıqları sarsıcıdı zərbələrdən sonra görüşə hazır olduqlarını bəyan etdilər. Beləliklə, bir günlük lokal antiterror tədbirlərinin nəticəsi olaraq sentyabrın 21-də Yevlaxda erməni sakinlərin təmsilçiləri ilə görüş keçirildi.





Politoloq: "Cənab Prezident İlham Əliyev strateji bir siyasət ortaya qoyaraq, erməni şovinizminə və separatizminə son verdi"

Azərbaycanın mərkəzi hakimiyyətini görüşdə Azərbaycan Respublikasının Qarabağ bölgəsində yaşayan erməni sakinlər ilə təmaslar üzrə məsul şəxs təyin edilmiş Ramin Məmmədov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin müavini Bəşir Hacıyev və xüsusi nümayəndəliyin əməkdaşı İlkin Sultanov, Qarabağın erməni sakinlərini Sergey Martirosyan və David Melkumyan təmsil edirlər. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası bildirib ki, konstruktiv və müsbət mühitdə keçən görüşdə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağın erməni əhalisinin reinteqrasiyası, infrastrukturunun bərpası və fəaliyyətinin təşkil olunması məsələləri üzrə müzakirələr aparılıb. Ramin Məmmədov tərəfindən reinteqrasiya üzrə planlar təqdim edilib. Həmçinin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin antiterror tədbirlərinin dayandırılması üzrə 20 sentyabr tarixli bəyanatında əks olunmuş məsələlərin tez bir zamanda icrasının vacibliyi vurğulanıb. Azərbaycanın Qarabağ bölgəsinin erməni sakinlərinin nümayəndələri sosial və humanitar xarakterli məsələlərin müzakirəsi kontekstində xüsusilə yanacağa ehtiyac duyulduğunu bildiriblər. Eyni zamanda, qida məhsulları olmaqla humanitar yardımın göstərilməsini xahiş ediblər. Görüşün nəticəsi olaraq onların xahişi müsbət qarşılanıb. Xüsusilə bağça və məktəblərin istilik sistemləri, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin ehtiyacları təmin olunmaqla yanacağın tezliklə təchiz edilməsi və humanitar dəstəyin həyata keçirilməsi planlaşdırılır. Tezliklə növbəti görüşün keçirilməsi barədə razılıq əldə edilib. Əlbəttə, elə ilk görüşdəcə son razılaşma əldə olunmasını gözləmək sadəlöhvlük olardı. Fakt bundan ibarətdir ki, ermənilər prinsipial olaraq Azərbaycanın əsas tələblərini qəbul ediblər, bunun ilk nümunəsi elə onların Yevlaxda görüşə gəlməsidir. Terrorçu rejimin silahları təhvil verməsi prosesi də paralel şəkildə həyata keçirilir.

Artıq Azərbaycanın ərzaq və digər zəruri mallar yüklənmiş yük maşınları Ağdamdan keçərək Xankəndiyə çatıb. Azərbaycan dövləti bununla növbəti dəfə böyük ürəyə sahib olduğunu göstərdi. Azərbaycan vətəndaşı olaraq yaşamaq istəyən mülki əhaliyə davamlı yardım ediləcəyi, lakin cinayətkarların cəzalandırılacağı barədə mövqeyə uyğun addımlar atılır. Artıq Prezident köməkçisi səviyyəsində ermənilərlə bağlı amnistiyanın anonsu verilib. BMT TŞ-dəki müzakirələr də göstərdi ki, bu proseslərdə haqlı tərəf Azərbaycandır. Erməni separatçıları Fransanın canfəşanlığı ilə keçirilən müzakirələrdən çox şey gözləyirdilər, artıq bu ümidləri də dəfn olundu və Azərbaycanın şərtlərini icra etməkdən başqa yol qalmır.

Şübhəsiz ki, Yevlax görüşü reinteqrasiya üçün prosesin başlanğıc - A nöqtəsi kimi qiymətləndirilməlidir. Z nöqtəsinə çatmaq üçün, təbii ki, müəyyən zaman lazımdır. Öncə reinteqrasiyaya başlamaq üçün detallar konkretləşdirilməli və Azərbaycanın diktə etdiyi variant icra olunmalıdır. O zaman suallar ortaya çıxır: növbəti görüş nə zaman və harada ola bilər? Əgər ermənilər bu dəfə də prosesi yubadarlarsa, antiterror yenidən başlaya bilərmi? Bu kimi suallara ekspertlərimizin maraqlı cavabları var.

Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov "Yeni Müsavat"a bildirdi ki, lokal xarakterli antiterror tədbirinin nəticəsi olaraq Qarabağdakı oyuncaq və qanunsuz idarəetmə sistemi dağıldı: "İndi biz erməni mənşəli əhalini təmsil edən şəxslərlə əhalinin reinteqrasiya məsələlərini müzakirə edirik. Əlbəttə, ilkin mərhələdə belə təmaslar davamlı ola bilər. Lakin ümid edirəm ki, ən yaxın vaxtlarda qanunsuz silahlı birləşmələr silahları təhvil verəcək, Ermənistan vətəndaşları olanlar Ermənistana, yerli əhalidən olanlar isə mülki həyata qayıdacaq. Əlbəttə, müharibə cinayətləri törədənlər istisna olmaqla. Onlar mühakimə olunmalıdır. Həmçinin yaxın vaxtlarda ərazidə Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq idarəetmə sistemi yaradılacaq. Mənim ehtimalıma görə, bir müddət bu idarəetmə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri haqqında Əsasnaməyə uyğun olaraq həyata keçirilə bilər. Sonrakı dövrlərdə Konstitusiyanın 124-cü maddəsinə uyğun olaraq, yerli icra hakimiyyəti sistemi, digər dövlət orqanları və təsisatları formalaşdırılacağını güman edirəm. Bundan sonra reinteqrasiya prosesləri və ərazilərinin Azərbaycan Respublikasının hüquq, sosial və iqtisadi məkanına inteqrasiyası prosesləri başlanmalıdır".

S.Məmmədov vurğuladı ki, proses xeyli müddət tələb edir və biz buna hazır olmalıyıq: "İlk növbədə əhalinin vətəndaşlıq məsələsi həll olunmalıdır. 1992-ci ilin yanvar ayının 1-nə qədər ərazidə yaşayanlar və onların həmin vaxtdan sonra doğulan övladlarına vətəndaşlıq adi qaydada, bərpa yolu ilə həyata keçirilməlidir. Sonra gələnlər isə əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər statusu alacaq və onların Azərbaycanda olması, müvəqqəti və daimi yaşayış hüququ bizim qanunvericiliyə uyğun həyata keçirilməlidir. Onların içərisində məsələn, nikah nəticəsində, əraziyə gələnlər varsa və digər şəxslər "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanuna uyğun olaraq naturalizasiya proseslərini keçməklə vətəndaşlıq əldə edə bilərlər. Amma bu halda vətəndaşlıq vermək ölkə Prezidentinin səlahiyyətinə aiddir". STM icraçı direktorunun dediyinə görə, reinteqrasiya prosesinin ən çətin və uzun müddət tələb edən aspektlərindən biri də orada mövcud olan təhsil sisteminin Azərbaycanın təhsil məkanına inteqrasiyasıdır: "Geniş açıqlama vermədən bildirirəm ki, bu, mürəkkəb prosesdir. Oyuncaq idarəetmənin elə qərarları, "qanunları" var ki, onlar hüquqi nəticələr yaradıb. Məsələn, mülkiyyətlə bağlı əqdlər, əhaliyə verilən daşınmaz əmlak, o cümlədən torpaq sahələri, mənzillər və qeyri-yaşayış sahələri. Bizim mülkiyyət hüququnu tanımağımız üçün müəyyən prosedurlar tələb olunur. Ərazidə olan dövlət əmlakı və əhaliyə məxsus əmlak dövlət reyestrinə daxil edilməlidir. Həmçinin infrastruktur sahələr balansa qəbul edilməlidir. Bank-maliyyə sistemi ölkənin bank-maliyyə sisteminə qoşulmalıdır. Rabitə sistemi mümkün qədər tez Azərbaycanın kommunikasiya sisteminə inteqrasiya edilməldir. Vətəndaşlıq vəziyyəti aktları, notariat arxivi və əhali reyestri Azərbaycanın müvafiq sisteminə daşınmalıdır".

S.Məmmədov bildirdi ki, əhalinin sosial təminat məsələləri, o cümlədən pensiya təminatının həlli o qədər də asan məsələ deyil: "Orada yaşayanlara görə Dövlət Sosial Müdafiə Fonduna heç bir ödəniş edilməyib. Daha xeyli məsələlər var ki, onlar ancaq mərhələli şəkildə və müəyyən olunmuş müddətlərdə həyata keçirilə bilər".

Ekspertimiz bir məsələni xüsusi vurğuladı: "Əlbəttə, Azərbaycan xalqına qarşı müharibə cinayətləri törədənlərin amnistiya olunmasından söhbət getməməlidir. Bizim qanunvericilik belə cinayətləri törədənlərə amnistiyanın tətbiqini qadağan edir. Amma ölkə Prezidenti bir müddət əvvəl bildirmişdi ki, amnistiya mümkündür. Yəni digər cinayətləri törədənləri, xunta rejimi ilə əməkdaşlıq edənlərin, oyuncaq idarəetmə qurumlarında çalışanların amnistiya olunması mümkündür. Daha bir məsələ də var. Etimad məsələsi. Yalnız son 100 ildə dəfələrlə bizimlə birgə yaşayan ermənilərlə bizdən asılı olmayan səbəblərdən üz-üzə gəlməli olmuşuq. Mən yaranmış şəraitdə əvvəlki fikirlərimi kifayət qədər yumşaq ifadə edirəm. Biz qalib xalqıq və biz nifrət dilindən istifadə etməməliyik. Bununla belə barış prosesi xeyli vaxt tələb edəcək. Yaraların sağalması da asan olmayacaq. Biz bağışlayan xalqıq, amma unutqan xalq olmamalıyıq. Ölkəmizdə sülhün, əmin-amanlığın bütün ərazilərimizdə təmin olunacağı vaxtın o qədər də uzaq olmayacağına ümid edirəm. Erməni mənşəli əhali reinteqrasiyada daha çox maraqlı olmalıdır. Reinteqrasiyaya maraqlı ola bilməyənlərə isə yol açıqdır".

Politoloq Məhəmməd Əsədullazadə isə əminliklə bildirdi ki, Azərbaycan antiterror əməliyyatı keçirməklə öz siyasi məqsədlərinə çatdı: "Demək olar ki, separatçılar təslim oldular. Azərbaycan ordusu separatizmin simvolu olan Xankəndi yolunda məlum tank abidəsini götürməklə demək olar ki, Xankəndiyə də nəzarət edir. Azərbaycan dəfələrlə erməni nümayəndələrinə görüş üçün müraciət etmişdi. Amma imtina edirdilər, şərtlər irəli sürürdülər. Nəticəsi isə onlar üçün acınacaqlı oldu. Buna baxmayaraq, Azərbaycan yenə də öz humanist siyasətini ortaya qoydu, ermənilərin xahişini nəzərə alıb, onlara ərzaq və yanacaq göndərdi. Bunu xahişi ilk gündən etmək lazım idi. Artıq qanunsuz erməni silahlı birləşmələri silahları Rusiya sülhməramlı qüvvələri vasitəsilə Azərbaycana təhvil verirlər. Bununla da silahlı separatizmə son qoyuldu. Silahlı erməni birləşmələri reinteqrasiya üçün ciddi problem idi".

Politoloq hesab edir ki, növbəti görüş Ağdamda keçirilə bilər: "Azərbaycanın bundan sonra konkret olaraq tələbləri olacaq. Qondarma "dövlət strukturu", qondarma "parlament" buraxılır. Polisi buraxılır. Heç bir müstəsna hüquq verilməyəcək. Düşünürəm ki, bundan sonra onların tabe olmamaq lüksü yoxdur, tabe olacaqlar və şərtlər yerinə yetiriləcək". M.Əsədullazadə qeyd etdi ki, BMT Təhlükəsizlik Şurasının iclası da Azərbaycanın haqlı mövqeyini ortaya qoydu: "Separatçılar başqa alternativin olmadığının fərqindədirlər. Cənab Prezident İlham Əliyev strateji bir siyasət ortaya qoyaraq, erməni şovinizminə və separatizminə son verdi". Bununla belə ekspert istisna etmir ki, ayrı-ayrı silahlı dəstələr tabe olmaya bilər: "Amma onlar da zərərləşdiriləcək və artıq antiterror əməliyyatına ehtiyac olmayacaq". Politoloq bildirdi ki, Azərbaycan reinteqrasiya siyasətinə başlayıb: "Ola bilər ki, növbəti danışıqlarda erməni nümayəndəsi Qarabağ İqtisadi Rayonu üzrə səlahiyyətli şəxs institutunda təmsil olunsun. Amma onlara xüsusi bələdiyyə və icra strukturu verilməyəcək".

❑ **Elşad PAŞASOY,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 170 (8306) 23 sentyabr 2023

Paşinyan üçün kritik 100 gün - əgər ilin sonunadək...

Elxan Şahinoğlu: "Vaşinqtonla Paris də dördlü görüş təklifindən məmnun qalmadıqlarından görüşün reallaşmaması üçün Paşinyana təzyiq edəcəklər"

Tural İsmayılov: "Ermənistan artıq anlamalıdır ki, onun real sülhdən başqa heç bir yolu qalmayıb"

Həm Azərbaycan, həm də Ermənistan tərəfdən növbəti dəfə sülh müqaviləsinin imzalanması ilə bağlı rəsmi, qeyri-rəsmi səviyyələrdə fikirlər səslənir. Rəsmi İrəvanın mövqeyində səmimi olmadığını ən azı ötən dövrdə görmüşük, Nikol Paşinyanın "ilin sonunadək sülh imzalana bilər"- bəyanatından bir neçə gün sonra qanlı sentyabr döyüşləri baş verdi. Bir neçə gün öncə də Ermənistanın baş naziri sülh razılaşmasından danışmışdı, ardınca Qarabağda mina terroru baş verdi və ordumuz antiterror əməliyyatı keçirməyə məcbur oldu.



Bəs Azərbaycan növbəti dəfə Dəmir Yumruğu endirəndən sonra nələr baş verə bilər? 2023-cü ilin sonuna düz 100 gün qalır. Görəsən, bu müddətdə sülh müqaviləsinin imzalanması üçün ümidlər nə yerdədir? Sözsüz ki, Bakının Qarabağda apardığı uğurlu antiterror tədbiri faktiki yeni situasiya yaradıb. Bəs bu yenilik böyük sülh sazişinin imzalanması baxımından nə vəd edir? Əslində Azərbaycanın ildırımsürətli antiterror tədbiri Nikol Paşinyanın əlini gücləndirməlidir, təbii ki, əgər o, həqiqətən, Bakı ilə sülh müqaviləsi imzalamaq istəyində səmimidirsə. Çünki erməni xalqına deyə bilər ki, "görürsünüz, Azərbaycanla sülh sənədindən yayındıqca bizim üçün şərtlər daha da ağırlaşır, sabah daha betər ola bilər" və s. Necə ki, Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan hələ 1997-ci ildə demişdi, "Bizə bu gün təklif ediləni götürməsək, sabah yalvarcağıq, çünki Azərbaycan güclənəcək". Elə də oldu. Ya bəlkə əksinə, Paşinyan Qarabağdakı antiterror tədbirindən sonra Ermənistanda pisləşən durumu bəhanə edib sülh prosesini daha da ləngidəcək? Bəs Bakının erməni icması ilə dialoqu hansı təsiri göstərəcək? Yada salaq ki, gələn ay - oktyabrın 5-də İspaniyanın Qranada şəhərində liderlərin (Əliyev-Paşinyan-Makron-Şolts-Mişel) "beşli format"da ikinci görüşü anons edilib. Bundan əlavə az öncə Türkiyə Prezidenti Rəcb Tayyib Ərdoğan "dördlü format"da görüş təklif edib... Hələlik Türkiyə liderinin təşəbbüsünə reaksiyalar bəlli deyil. Amma bu həm də Ermənistanın xilas yoludur, anlasa...

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, Qarabağda separatizmə son qoyulub: "Azərbaycan 30 ildən sonra Qarabağ ərazisinin tamamında suverenliyini bərpa edib. Azərbaycanın Yevlax şəhərində Qarabağ erməni icmasının nümayəndələri ilə ilk görüş keçirilib. Müxtəlif məsələlər həll olunmalıdır. Qarabağda Azərbaycanın pul vahidi olan manat işlənməlidir. Qarabağ ermənilərinə Azərbaycan pasportları paylanacaq. Xankəndinə Azərbaycanın içindən qaz boru xətti çəkilməlidir, elektrik və internet Bakıdan verilməlidir. Ermənistan Azərbaycan torpaqlarını işğalda saxladığı 30 il ərzində Qarabağa qanunsuz qaz boru xətti çəkmişdi. Ermənistan Rusiyadan aldığı qazın bir hissəsini həmin boru xətti ilə Qarabağa nəql edirdi".

E.Şahinoğlu qeyd etdi ki, Azərbaycanın hədəfi bəllidir: "Erməni separatçıları silahları təhvil verməli; separatçılar "parlamenti" və "hökuməti" buraxmalıdırlar; Qarabağda Azərbaycan qanunları işləməlidir".

Politoloq xatırlatdı ki, Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 20-də televiziya ilə xalqa müraciətində bir neçə məsələdən danışdı: "Birincisi, İlham Əliyev dedi ki, Qarabağın Azərbaycana reinteqrasiyası sürətlənəcək. Azərbaycan qanunları ilə yaşamaq istəməyən Qarabağ ermənilər Ermənistana köçəcəklər. Azərbaycan qanunları ilə yaşamaq istəyən ermənilər isə Qarabağda yaşamalarına davam edəcək və onların sosial problemləri həll olunacaq. İkincisi, İlham Əliyev Nikol Paşinyandan razı qaldığını söylədi. Paşinyan Azərbaycan ordusunun Qarabağdakı əməliyyatına mane olmaq istəmədi. Çünki o, mane olmaq istəsəydi, müharibə Ermənistan ərazisinə keçəcəkdi. Paşinyan bunu anladığından Azərbaycanın hücum əməliyyatına seyrçi qaldı. Buna görə İlham Əliyev Nikol Paşinyanın bu addımını müsbət qiymətləndirdi".

Analitik hesab edir ki, Azərbaycan Qarabağın tamamına nəzarəti bərpa etdikdən sonra Ermənistanla sülh sazişinin imzalanması ehtimalı artıb: "Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyan sazişə imza ata bilər. Bundan sonra iki ölkə arasında münasibətlərdə normallaşma başlayacaq, digər məsələlər də həll olunacaq. Azərbaycanla Ermənistan arasında əldə olunacaq sülh "Cənubi Qafqaz evi"nin yaranmasına şərait yaradacaq. "Cənubi Qafqaz evi" hər 3 ölkənin - Gürcüstanın, Azərbaycanın və Ermənistanın maraqlarına cavab verir. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan, Rusiya və Ermənistana liderlər səviyyəsində dördtərəfli görüş keçirməyi təklifi bölgədə sülhə və əməkdaşlığa xidmət edir. Rusiya prezidenti Vladimir Putin bu təklifə dəstək verə bilər. Putin üçün əsas olan ABŞ-la Avropa İttifaqını Ermənistandan və bölgədən uzaq tutmaqdır. Əlbəttə, Kreml Türkiyənin Cənubi Qafqazdakı fəallığından, Azərbaycanla strateji müttəfiqliyindən məmnun deyil. Ancaq Putin ABŞ-la Türkiyə arasındakı seçimdə, şübhəsiz, ikinciyə üstünlük verər. Problem Ermənistanın baş naziri Nikol Paşinyanla bağlıdır".

E.Şahinoğlu qeyd etdi ki, cənab Ərdoğan dördlü görüş təklifini telefon söhbətində Paşinyana bildirib: "Nikol Paşinyan son bir ildə Fransa prezidenti Emmanuel Makronun iştirakı olmadan Azərbaycan prezidenti İlham Əliyevlə görüşlərdən çəkinir. Dördlü görüş perspektivi Paşinyanı daha çox qorxudur, çünki masanın bir tərəfində ermənilərin illərdir düşmən gözüylə baxdıqları Türkiyənin lideri, digər tərəfində də münasibətlərini pozmağa başladığı Rusiya prezidenti oturacaq. Vaşinqtonla Paris də dördlü görüş təklifindən məmnun qalmadıqlarından görüşün reallaşmaması üçün Paşinyana təzyiq edəcəklər".

Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri Tural İsmayılovun da bu məsələ ilə bağlı maraqlı fikirləri var: "Ermənistan artıq anlamalıdır ki, onun real sülhdən başqa heç bir yolu qalmayıb. Çünki bir tərəfdə həqiqi dövlət olub onun-bunun forpostu olmaqdan qurtulmaq var. Digər formada isə Ermənistan xarici güc faktorlarının oyuncağı olaraq qalmağa davam edəcək. Rusiya-Ermənistan münasibətlərinin hansı istiqamətdə inkişaf edəcəyi ilə bağlı müəyyən fərqli proqnozların şahidi oluruq". T.İsmayılovun sözlərinə görə, bəzi hallarda Paşinyanın hakimiyyətdə qalmasına Rusiyanın razılıq verməyəcəyi vurğulanır ki, bu da mümkündür: "Çünki Rusiya rəhbərliyi anlayır ki, Ermənistandakı soroscularla hansısa danışıqların aparılması effekt verməyəcək. Həmçinin Rusiya rəhbərliyi yaxşı bilir ki, bu gün Ermənistandakı anti-Rusiya əhval-ruhiyyəsi bitməyib və Moskva bunun ən böyük günahkarı kimi hazırkı iqtidar komandasını göstərir. Bu baxımdan münasibətlərin inkişafı istiqaməti ilə bağlı fikir səsləndirmək üçün zamana ehtiyac var. Ola bilsin ki, Rusiya Paşinyan iqtidarının Ermənistanda əvəzlənməsi üçün səy göstərsin. Amma Qərbdə də konkret sülhü istəməyənlər var. Fransa belə düşünür ki, əgər Azərbaycanla sülh müqaviləsi bağlansa, Ermənistandan istifadə rıçaqları zəifləyə bilər. Qranada görüşündə ilkin detallar razılaşdırıla bilər. Azərbaycanın ard-arda zəfərləri də burada həlledici faktor rolunu oynayır".

Hələ ki, Qarabağdakı terrorçuların kökünün kəsilməsi, onların tərk-silah edilməsi mərhələsi gedir. Qardaş Türkiyə bu mərhələdə də BMT Baş Assambleyası və BMT Təhlükəsizlik Şurasının tribunalarından Azərbaycana yüksək dəstəyini ifadə etməklə gerçək qardaşlığın nümunəsini növbəti dəfə nümayiş etdirdi. Eyni zamanda istisna deyil ki, cənab Ərdoğan Paşinyanla son telefon danışığında Ermənistan üçün çıxış yollarını anladıb. Şəraiti düzgün qiymətləndirib, reallığı anlasalar, xilas olacaqlar... Çətin deyil: sülhü imzalamaq, Zəngəzur dəhlizini açmaq, Azərbaycanın işğal altındakı kəndlərini azad etmək, işğal dövründə ölkəmizə vurulan zərəri ödəmək, tarixi yurdlarından didərgin salınan insanları öz evlərinə qaytarmaq...

❑ **Elşad PAŞASOY,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 170 (8306) 23 sentyabr 2023



Prezidentin Cənubi Qafqazın gələcəyi ilə bağlı "Yol xəritəsi" - alternativ yoxdur

Hikmət Babaoğlu: "Azərbaycan dövlət başçısı Cənubi Qafqazda sülh yaratma istəyində qətiyyətlidir və bunun üçün əməli tədbirlər həyata keçirir"

Oqtay Qasımov: "Faktiki olaraq, 2020-ci ilin dekabrında zəfər paradında səsləndirilən 3+3 formatı ilə bərabər, eyni zamanda üçlü bir format təklif olunur"

19 və 20 sentyabrda həyata keçirilən antiterror tədbirlərindən və onun nəticələrindən sonra regionda yeni tendensiya formalaşmaqdadır. Prezident İlham Əliyev sentyabrın 20-də xalqa müraciətində rəsmən bəyan etdi ki, bölgəmizdə yeni vəziyyətin yaranması labüddür.

Prezidentdən sitatlar:

- Çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət rahat nəfəs ala bilər.

Erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi. Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında olmazın yalanlarını uydurub onların beyinlərinə doldurmuşdur, onların beyinlərini zəhərləmişdir.

Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur.

- Bütün haqsızlıqlara baxmayaraq, bütün kriminal Ermənistan rejimi tərəfindən törədilmiş cinayətlərə baxmayaraq, biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq. Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar.

- Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik və bir daha demək istəyirəm, Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir. Ümidlər verir ki, o gün uzaqda deyil - Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar. (Burada xüsusi olaraq qeyd edək ki, Prezident İlham Əliyev 2022-ci ilin oktyabrında Gürcüstana səfəri zamanı Qafqaz formatı təklif etmişdi. Antiterror tədbirlərindən sonra yaranmış yeni rellıqlar "Qafqaz evi" ideyasının gerçəkləşməsi üçün zəmin yaradır)

- Ermənistan bu dövr ərzində - dünən, bu gün, deyə bilərəm ki, gözlənilmədən siyasi sərişdə göstərib və biz bunu qiymətləndiririk. Bunu önəmli amil kimi görürük və hesab edirəm ki, dünən və bu gün baş vermiş hadisələr, eyni zamanda, Azərbaycanla Ermənistan arasında gedən sülh prosesinə də müsbət təsir göstərəcək...

Beləliklə Azərbaycan Prezidenti İlham Əliyev bu tezislərlə faktiki olaraq bölgə üçün "Yol xəritəsi"ni göstərib. Bölgədə sülh, inkişaf üçün alternativ yoxdur. Üç Cənubi Qafqaz ölkəsinin əməkdaşlığı hansı andan baş tuta bilər və bu regiona nə vəd edir?

Milli Məclisin deputatı Hikmət Babaoğlu "Yeni Müsavat"a bildirdi ki, 19-20 sentyabrda Qarabağda Azərbaycan ordusu tərəfindən həyata keçirilən lokal anti-terror tədbirləri sülh istiqamətində atılan addımlarda yeni mərhələ yaratdı: "Çünki Azərbaycan ərazisində və bütövlükdə Cənubi Qafqazda sülhü təhdid edən ən əsas faktor Azərbaycanın Qarabağ ərazisində 10 min erməni silahlısının qalması idi. Artıq bu faktor keçmişə çevrilməkdədir. Ona görə də yeni imkanlar yaranıb. Bu baxımdan da Azərbaycan Prezidenti Azərbaycan xalqına müraciət edərkən yeni yaranmış vəziyyətlə bağlı regionun gələcəyinin əslində "Yol xəritəsi"ni çəkmiş oldu. Cənab İlham Əliyev öz çıxışının son hissəsində Qafqazın ümumi lideri kimi, yaxud qlobal liderlərdən biri kimi çıxış edərək imperialist mərkəzlərə mesaj göndərmiş oldu ki, Cənubi Qafqaz onsuz da kifayət qədər mürəkkəb regiondur və bu regiondan əl çəkin. Bu, o deməkdir ki, Azərbaycan dövlət başçısı öz Cənubi Qafqazda sülh yaratma istəyində qətiyyətlidir və bunun üçün əməli tədbirlər həyata keçirir. Şübhəsiz ki, Cənubi Qafqazın aparıcı ölkəsi kimi Azərbaycanın mövqeyi, davranışları təyinedici olacaq. Ona görə də əslində əvvəlcədən irəli sürülmüş 3+3 formatı və burada üç Cənubi Qafqaz ölkəsinin birgə sinxron fəaliyyəti üçün yeni imkanlar yaranır. Əgər Ermənistanla Azərbaycan arasında sülh olacaqasa, hər üç Cənubi Qafqaz ölkəsi beynəlxalq münasibətlərdə və regional iqtisadi münasibətlərdə sinxron davranış nümayiş elətdirə biləcəklər. Regionun gələcəyi də, regionda sülhün uzun müddətli və etibarlı olması da bundan asılıdır. Ona görə də əgər Ermənistan bu reallığı nə qədər tez dərk edərsə və Cənubi Qafqaz üçlüyü formatına nə qədər tez qoşulmaq barədə qərar qəbul edərsə onda əlbəttə ki, regionumuza sülh və rifah daha tez gəlmiş olar".

Politoloq Oktay Qasımov isə bildirdi ki, 24 saatlıq lokal antiterror tədbirləri öz nəticəsini verdi və bölgədə yeni reallıq yarandı. Belə ki, artıq Azərbaycan ərazisində 30 ildən artıq yerləşmiş Ermənistan silahlı qüvvələrinin birləşmələri bölgəni dərk etməlidir. Bu da bölgənin, o cümlədən Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının yaranmasına gətirib çıxaracaq. Əməliyyatların yekunlaşmasından sonra Azərbaycan Prezidentinin xalqa müraciətində səsləndirdiyi fikirlər əslində proqram tezisli bir müraciət kimi qəbul edilə bilər: "Orada həm baş verən hadisəyə qiymət verildi, onun səbəbləri, nəticələri ən önəmli olan gələcəyə yönəlik fikirlər səsləndirildi ki, bu fikirlər həm Qarabağ ərazisində yaşayan erməni əhali ilə bağlı olan məsələydi, o cümlədən Azərbaycan-Ermənistan münasibətlərinin bundan sonrakı dövrü ilə bağlı olan məsələlər və ümumən Cənubi Qafqazla bağlı fikirlər ciddi şəkildə qəbul olunası tezislərdir. Həm orada yaşayan ermənilərin gələcəyi ilə bağlı məsələlər, onlara verilən hüquq və təhlükəsizlik təminatları ilə bağlı məsələlər, bütün məsələlərin Azərbaycan konstitusiyası çərçivəsində həlli ilə bağlı olan əsas məsələlər çox önəmli idi. Və bu məsələlərlə bağlı Ermənistanın son davranışlarına da pozitiv qiymət verən Azərbaycan Prezidenti ümumiyyətlə bölgədə kənar güclərin iştirakının buradakı proseslərə heç də müsbət təsir etmədiyini söylədi. Faktiki olaraq Prezidentin gələcək dövrlərdə üç Cənubi Qafqaz ölkəsinin münasibətləri ilə bağlı fikirləri də çox önəmlidir. Yəni faktiki olaraq, 2020-ci ilin dekabrında zəfər paradında səsləndirilən 3+3 formatı ilə bərabər eyni zamanda üçlü bir format təklif olunur. Bu təklifi Azərbaycan Prezidenti keçən il Gürcüstana səfərində ilk dəfə rəsmi şəkildə səsləndirmişdi. Orada da Prezident İlham Əliyev Azərbaycan, Gürcüstan və Ermənistanın öz arasında münasibətlərin inkişaf etdirilməsi və mehriban qonşuluq münasibətlərinə keçid və faktiki olaraq iqtisadi əlaqələrin qurulması, inkişaf etdirilməsi ilə bölgədə bir sabitlik müstəvisinin yaradılmasının zəruruliyini qeyd etdi ki, bu belə bir mühitin yaranması, əlaqələrin inkişafı bölgədə hər üç dövlətin maraqlarına uyğun olan fikirlər idi. O baxımdan Azərbaycan Prezidentinin səsləndirdiyi bu fikir, əlbəttə, gələcək üçün ümumi bir yol xəritəsi kimi qəbul edilməlidir".

Politoloq vurğuladı ki, Gürcüstan tərəfinin də bunda maraqlı olduğunu keçən il Tiflis və bu ilin əvvəlində Gürcüstan baş naziri də təsdiqləmişdi. İndi burada əsas zəif bənd Ermənistandır: "Belə ki, Ermənistan hələ 1993-cü ilin fevralında ortaya çıxan "Ümumqafqaz Evi" prosesinə qoşulmamışdı. Bu layihə ona görə reallaşmadı. İndi də yenə Ermənistan özü müstəqil qərar vermək iqtidarında hələ də olmadığından və kənar təsirlərin nəticəsində siyasətini qurduğundan ona burada ən zəif bənd Ermənistandır. Amma Ermənistanda da reallığı anlayan siyasətçilər və dövlət adamları da var. Onlar Azərbaycan Prezidentinin bu tezislərini qəbul edərlərsə və Azərbaycana qarşı düşmənçilik siyasətindən əl çəkərsə, faşist-rasist-irqçi ideologiyanın da ləğv edilməsi ilə prosesə qoşula bilərsə, əlbəttə, bu bölgə dövlətlərinin hər biri üçün faydalı ola bilər. Odur ki, Prezident İlham Əliyevin təklifləri Qafqaz ölkələrinin maraqlarına, həm də onların suveren hüquqlarına uyğun təkliflər olduğu üçün qəbul olunması vacibdir".



Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

❑ **Etibar SEYİDAĞA,**
"Yeni Müsavat"



Xələl gətirən 304 nəfər

Zamin HACI
zaminhaci@gmail.com

Uşaq vaxtı bizə öyrədirdilər ki, məsəl üçün, sənət aləminin korifeyləri Bethovendir, Qara Qarayevdir, Pikassodur, nə bilim, bəd ayaqda Səyavuş Aslandır. Sonra elə bir dövr gəldi, İlhamə xanım efirdən şəxsən bəyan elədi: "Korifey özüməm".

O cümlədən, əvvəllər biz elə zənn edirdik fenomen deyiləndə Üzeyir Hacıbəyli nəzərdə tutulur, ancaq Üzeyir Mehdizadə fenomen çıxdı.

Hazırda vəziyyət lap qəlizdir. Görürsən kimsə ekranda bozbaş asır, minlərlə, milyonlarla adam ağzının suyunu axıda-axıda ona baxır və nəticədə fenomen ünvanı qazanır. Qarpız təpikləmək, ən sürətli burun qurdalamaq, dırnağını uzatmaq, öz qulağına tüpürmək, hörümçək yemək və sairə üzrə fenomen olanlar da vardır. (Siyahını təxminən, gümanlarım əsasında yazıram, çünki belə şeyləri izləmirəm).

Əlbəttə, heç kimin işinə, şəxsi dünyagörüşünə, həyatına qarışmaq olmaz, bu yuxarıdakı ağsaqqal nəsihətlərini də niyə yazdım, bilmirəm. Hamısı bekarçılıq əlamətidir. Laroşfuko demişkən: "Bekarçılıq bütün qəbahətlərin anasıdır". İndiki fenomenlər nəsli tanımaz, Laroşfuko da bizim yeniyetməlik dövrünün "Cemal Süreyya"sı, "Ceyson Stethem"i, canım sənə desin "Albert Eynşteyni" idi, kim afyorizm uydurmaq istəsə Laroşfukonun adından uydururdu. Doğrudur, rəhmətliyin "Bir axmaq bizi tərifləməyə başlayanda, artıq axmaq kimi görünmür" tipli maraqlı fikirləri var idi, ancaq çox vaxt "Yaz gələndə havalar qızır" tipli müdrik sözləri də Laroşfukonun adından yayırdılar.

Sözü ona gətirirəm ki, işin adını qoymaq o işin özü qədər vacibdir. (İndi sadiq oxucular başını tutacaq: "Vay, dədə, bu indi yenə hansısa yer adlarını araşdıracaq". Qorxmayın. İçimdəki toponimika qurdunu müvəqqəti əzmişəm). Gələcək necə olacaq, hansı addımı atsaq nə baş verər - bunlar da çox zaman insandan asılı olmur. "Allahı güldürmək istəyirsənsə, gələcək planların haqda danış" - belə də afyorizm var.

Keçən günlərdə Maliyyə Nazirliyinin adından xəbər yayılmışdı, deyir, 2024 və 2025-ci illərdə COVİD-19 pandemiyası aktual olmayacaq, büdcə, pul siyasətimizi planlaşdırarkən bu virusu nəzərə almaq vacib deyil.

Bu arxayınçılığa ehtiyac yoxdur. Axmaq virusdur, bir də gördün təzədən qayıtdı. Elə hörmətli nazirliyimizin sənədi açıqladığı günün axşamı COVİD-ə yoluxma sayımız birdən-birə 140 nəfərə çatmışdı, halbuki, əvvəlki günlər 4-5 ola, olmaya. Damazlıq virus tapılmayan vəziyyətdə az qalırdı yenə xəstəxanalar dolsun. Sən saydığını say, gör virus nə sayır.

Yaxud, bu tarixi günlərdə kim ağlına gətirə bilərdi ki, YAP-ın nüfuzuna ziyan vurmaq olar? Olarmış. Buyurun, 21 sentyabrda hakim partiyada iclas düzəldilib, nə az, nə çox, düz 304 nəfər YAP-ın nüfuzuna xələl gətirdiyi üçün üzvlükdən xaric edilmişdir. Sitat: "Partiya nüfuzuna xələl gətirən 304 nəfər YAP sıralarından xaric olunub". Sitatın sonu. (Açığı, birdən ağlıma gəldi ki, bu cümləni təkrarlamaq nəsə mənim xoşuma gəlir).

Dəhşətdir. Bir deyil, beş deyil... Bu 304 nəfər YAP-ın nüfuzuna xələl gətirməyə harda, necə, hansı ürəklə, necə bir cəsarətlə imkan, fürsət, vaxt, şərait, alət, vasitələr tapmışdır? Ağlasığmazdır.

Əlbəttə, YAP üzvlərinin sayı yüz minlərlə ölçülür, ona görə 304 nəfərin çürük çıxması nəyisə dəyişdirməz. Ancaq yenə də partiyanın nüfuzuna xələl gətirən 304 nəfər üzvlükdən xaric olunub və bunu yazan mən deyiləm.

Çalışmaq lazımdır partiya üzvləri xələt gətirsin, xələl gətirməsin. Fenomen üzv olmalısan, o cümlədən.



Bakının antiterror tədbiri Soçi görüşündə razılaşdırılıb? - ilginc iddia

"Çox güman ki, Putin Soçidə Ərdoğanla son danışıqlar zamanı Qarabağ separatçılarının məğlubiyyətinə razı olub, çünki Ərdoğana nəsə söz verməli olub. Hər halda Soçidəki danışıqlarda uğursuzluğun qarşılığı olmaya bilməzdi. Ərdoğan Azərbaycan ordusunun əli ilə də olsa, belə cavab verdi". Bu barədə rusiyalı tanınmış siyasi analitik və tarixçi Dmitri Çernışevski özünün Youtube kanalında bildirib.

Belədirmi? Doğrudanmı antiterror tədbiri iki liderin Soçi görüşündə (5 sentyabr 2023) razılaşdırılıb?

Qeyd edək ki, ötən gün Türkiyə müdafiə naziri Yaşar Gülər antiterror tədbirində qardaş ölkənin heç bir şəkildə iştirak etmədiyini, bunu Azərbaycanın tək özü həyata keçirdiyini söyləyib.

Onu da qeyd etmək yerinə düşər ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hər zaman Azərbaycana həm mənəvi, həm də siyasi dəstəyini nümayiş etdirib. Bunun biz sentyabrın 19-da Nyu-Yorkda BMT Baş Assambleyasının 78-ci iclasında çıxışı zamanı bir daha şahidi olduq. O, Azərbaycanın Qarabağ iqtisadi rayonunda apardığı antiterror əməliyyatlarına haqq qazandıraraq deyib: "Qarabağ Azərbaycan torpağıdır, bunun xaricində heç bir status qəbul edilməyəcək". Cənab Ərdoğanın Nyu-Yorkdakı çıxışının başqa bir tərəfi də o idi ki, o, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsinə zəmin yaradırdı. Belə ki, Türkiyə Prezidenti BMT TŞ üzvlərini ittiham edərək dedi ki, Təhlükəsizlik Şurası artıq dünya təhlükəsizliyinin qarantı deyil, 5 ölkənin siyasi strategiyasının döyüş meydanına çevrilib.

İki prezidentin sentyabrın 5-də keçirilən Soçi görüşündə isə diqqət mərkəzində olan başlıca məsələ "Taxıl sazişi"nin bərpası idi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı Vladimir Putinlə ikitərəfli görüşdən sonra deyib: "Biz "Taxıl sazişi"nin bərpası üçün yeni təkliflər paketi hazırlamışıq, müsbət nəticə əldə edəcəyimizə ümid edirik". Bununla belə, Soçidəki görüşdə Qarabağ məsələsinə də toxunulub. Ərdoğan-Putin görüşündə Vladimir Putin Türkiyənin Qarabağ məsələsində müsbət rolunu ifadə edib: "Qarabağdakı atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzi aktiv şəkildə fəaliyyət göstərir və bölgədə sabitlik üçün ciddi zəmanətdir". Putin bu əməkdaşlığın sabitliyin və barışığa yönəlmiş gələcək addımların müəyyənləşdirilməsi üçün tərəflərin mövqelərinin razılaşdırılmasının ciddi təminatı adlandırıb. Rusiya prezidenti Türkiyənin Qarabağ məsələsindəki rolunu bir daha qeyd edib.

Rusiyalı siyasi analitikin iddiasının hər hansı əsası varmı?

Mövzu ilə bağlı tanınmış politoloq Qabil Hüseynli "Yeni Müsavat"a dedi ki, Soçidə Ərdoğanla Putin arasında müəyyən fikir mübadiləsi olub: "Xüsusilə Qarabağ məsələsində. Qarabağda Ermənistanın silahlı qüvvələrinə məxsus 10-12 minə yaxın silahın qaldığı da müzakirə edilib. Bu silahların həmin ərazidən çıxarılmasına cavabdeh üçtərəfli müqaviləyə görə Rusiya idi. Rusiya hələ II Qarabağ müharibəsi qurtarandan sonra Ermənistan kapitulyasiyaya getdikdən sonra bunu etməli idi, etməmişdi. Zənnimcə, Ərdoğan bu məsələni yerinə yetirməyi tələb etmişdi. Bütün bunların böyük müharibəyə səbəb ola biləcəyini diqqətə çatdırıb. Ruslar bu antiterror tədbirlərində iştirak etmədi. Azərbaycan ordusu yalnız müxtəlif istiqamətlərdə öz ərazisində suverenliyini təmin etmək üçün lokal xarakterli hərbi tədbirlər gördü. Bu tədbirlər nəticəsində uğur qazanıldı. Bu tədbirlər cəmi 23 saat çəkdi. Rus sülhməramlılarının özləri də bu əməliyyatın dayandırılmasına çalışdı, həm də döyüş həmlələrinin digər ərazilərə sıçramasına yol vermədi. Hər şey Azərbaycanın suveren iradəsi çərçivəsində həyata keçirildi. Türkiyə və onun prezidentinin hüsn-rəğbəti bizimlə bağlı idi, bu da təbiidir. Burada rusların Azərbaycana köməyindən danışa bilmərəm. Hələ də bəzi ərazilər var ki, orada olan erməni silahlı qüvvələrinin tərk-silah prosesi heç başlamayıb. Bu nöqteyi-nəzərdən Ərdoğan-Putin razılaşması ilə bağlı hər hansı söz söyləmək mümkün deyil".

Ərdoğanın Soçi səfərində razılaşdırılıb? - ilginc iddia

Qabil Hüseynli: "Hər şey Azərbaycanın suveren iradəsi çərçivəsində həyata keçirildi"

❑ **Afaq MİRAYİQ,**
"Yeni Müsavat"



Şuşada Azərbaycan Ordusunun nəzarəti altına keçmiş ərazidə mina partlayıb

2023-cü il 22 sentyabr tarixində Şuşa rayonunun Xəlfəli kəndi ərazisində minalardan təmizlənməmiş ərazidə mina partlayışı baş verib.

APA xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi (ANAMA) birgə məlumat yayıb.

Məlumata əsasən, Azərbaycan Ordusunun nəzarəti altına keçmiş ərazidə yolun salınması fəaliyyəti ilə məşğul olan 1965-ci il təvəllüdlü mülki şəxs idarə etdiyi traktorla minaya düşüb.

"Hadisə nəticəsində traktorçu yüngül xəsarət alıb. Həyatı təhlükəsi yoxdur.

Mülki təyinatlı sahələrin minalanması bir daha Ermənistanın dinc əhaliyə qarşı məkrli niyyətinin göstəricisi, insanlığa qarşı törədilmiş terrorun təzahürüdür", - qeyd olunub.



Fransa və "bacısı"nın BMT TŞ-də növbəti fiaskosu - Mirzoyan zaldan qaçdı...

Parisin təşəbbüsü ilə çağırılan Qarabağ dinləmələrində İrəvanın arzusu yenə gözündə qaldı, heç bir sənəd qəbul olunmadı; Bayramov faktlarla çıxış edib Paşinyandan sitat gətirəndə erməni həmkarı iclası tərk etməli oldu - Reaksiyalar

Sentyabrın 21-i axşam saatlarında BMT Təhlükəsizlik Şurasının Fransanın təşəbbüsü ilə keçirilən Qarabağa həsr olunmuş iclasında heç bir sənəd qəbul olunmadı. Makron administrasiyasının və onun "bacısı" olan Ermənistan hakimiyyətinin arzusu növbəti dəfə gözündə qaldı.

"Yeni Müsavat"ın siyasət şöbəsi yazır ki, toplantıda iştirak edən ölkə təmsilçiləri deklarativ çıxışlarla kifayətlənib lər. Xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanın haqlı mövqeyini fakt və sübutlarla iclas iştirakçılarının diqqətinə çatdırıb. Toplantı Ermənistanın və havadarlarının gözləntilərinin əksinə olaraq heç bir sənəd qəbul olunmadan başa çatıb.

Nazir C.Bayramov geniş mətnlə çıxışında vurğulayıb ki, Təhlükəsizlik Şurası Azərbaycanın Qarabağ regionunun erməni əsilli sakinlərinin hüquq və təhlükəsizliyinə dair iddia edilən narahatlıqlar ilə əlaqədar müzakirələr üçün çağırılanda, ərazidə antiterror tədbirləri dayandırılıb və bununla da Azərbaycanın Qarabağ regionunun erməni əsilli sakinlərinin praktiki olaraq reinteqrasiyasına imkan yaranıb. Onun sözlərinə görə, Azərbaycan hökumətinin xüsusi nümayəndəsinin erməni sakinlərin təmsilçisi ilə artıq çoxdan gecikmiş görüşü Yevlax şəhərində baş tutub. Nazir iclas iştirakçılarının nəzərinə çatdırıb ki, görüşdə yerli erməni sakinlər üçün dialoq məqsədilə Azərbaycan hökuməti tərəfindən təyin edilmiş xüsusi nümayəndə hökumətin reinteqrasiya ilə bağlı planlarının xülasəsini təqdim edib və infrastrukturların bərpası və işləməsi ilə bağlı məsələlər müzakirə olunub: "Sosial və humanitar məsələlərin müzakirəsi kontekstində və erməni sakinlərin müraciəti əsasında uşaq bağçaları və məktəblər, xəstəxanalar və digər fövqəladə xidmətlər sahəsində sosial obyektlərin çalışması üçün yanacağın çatdırılması, eləcə də digər humanitar dəstək tədbirlərinin görülməsi məsələlərinin tezliklə aidiyyəti mərkəzi hökumət institutları tərəfindən icra olunması gözlənilir. Belə bir dialoq Azərbaycanın suveren ərazisində ağır silahlanmış qanunsuz hərbi mövcudiyyətə arxalanan erməni tərəfinin əngəlləri səbəbindən mümkün olmamışdı. Ermənistanın Azərbaycanın Qarabağ regionunun dinc sakinlərinə hücumu kimi beynəlxalq ictimaiyyətə təqdim etməyə çalışdığı məsələ, əslində, Azərbaycanın BMT Nizamnaməsi əsasında özünün suveren ərazisində qanunsuz erməni silahlı birləşmələrini tərk-silah etmək ilə bağlı hüquqları ilə tam uyğun olan antiterror tədbirləridir. Heç bir suveren dövlət öz ərazisində belə qanunsuz hərbi mövcudluğu qəbul edə bilməz. Azərbaycan da bunu edə bilməz. Azərbaycan özünün bütün sakinlərinin sağlamlığı və təhlükəsizliyini qorumaq məqsədilə beynəlxalq hüquq və öz Konstitusiyasından irəli gələn hüquqlarına tamamilə uyğun hərəkət etmişdir". XİN başçısı həmçinin antiterror əməliyyatlarında dinc sakinlərin hədəf alınmadığını BMT-də fotolarla sübut edib.

Maraqlıdır ki, XİN başçısı Ceyhun Bayramov çıxış edərkən Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın zalı tərk etdiyini əks etdirən görüntülər yayılıb. Erməni Teleqram kanalları isə Mirzoyanın Qarabağda dinc insanların öldürülməsi və antiterror tədbirləri zamanı şəhərlərə ordunun girməsi iddialarına Ceyhun Bayramovun məhz Ermənistan Baş naziri Nikol Paşinyanın bu məlumatları yalan adlandırması, Qarabağda ermənilərə heç bir təhlükə olmadığı barədə sözlərini sitat gətirməklə cavab verməsinə dözmədən, zaldan çıxdığını iddia edirlər. A.Mirzoyan C.Bayramovun çıxışından sonra zala qayıtmışdı. Beləcə, Bayramov öz parlaq çıxışı, peşəkar davranması və təqdim etdiyi real faktlarla dinləmələrə öz möhürünü vurdu. BMT TŞ-nin iclası yenə də ölkəmiz əleyhinə heç bir qərar və ya qətnamə olmadan başa çatdı.

BMT TŞ-nin Qarabağdakı vəziyyətlə bağlı iclasındakı çıxışında Türkiyənin xarici işlər nazirinin müavini Burak Akçapar da bildirib ki, Türkiyə Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərlə Azərbaycan nümayəndə heyətinin görüşünü alqışlayır. Akçapar bildirib ki, son üç ildə Ermənistan tərəfi üçtərəfli bəyantın icrasına əməl etməyib. Eyni zamanda Xankəndidə olan qeyri-qanuni nümayəndələr öz təcrübələrini tətbiq ediblər. Qarabağ müzakirələrində ABŞ nümayəndəsi Linda Tomas Qrinfild isə deyib ki, ölkəsi baş verənlərdən narahatdır və biz bu fəaliyyətlərin dayandırılmasına çağırış edirik. O bildirib ki, hərbi əməliyyatların dayandırılması müsbət haldır və inkişafa səbəb olacaq. "ABŞ humanitar təşkilatlara müraciət edərək yardımların çatdırılmasını təşviq edib. Bu həftə Ağdam-Xankəndi və Laçın-Xankəndi yolundan Qarabağdakı erməni əhaliyə yardımlar çatdırıldı. Həqiqətən bu çox önəmli hadisə idi", - deyə o bildirib. Onun sözlərinə görə, bu böhranın yeganə yolu zorakılığa son qoymaqdır.

Fransanın xarici işlər naziri Ketrin Kolonna Azərbaycanın Qarabağda həyata keçirdiyi hərbi əməliyyatı tənqid edərək mövcud vəziyyəti "təcavüz" adlandırıb. Fransa BMT Təhlükəsizlik Şurasının iclasında Azərbaycanı silahı yerə qoyan Qarabağ ermənilərinə amnistiya elan etməyə və regionda beynəlxalq mövcudluğa zəmanət verməyə çağırıb. Britaniya XİN rəhbəri Ceyms Kleverli bildirib ki, Birləşmiş Krallıq Azərbaycanın ərazi bütövlüyünü və beynəlxalq tanınmış sərhədlərini dəstəkləyir: "Biz Qarabağda erməni əhalinin təhlükəsizliyinə təminat veriləcəyinə ümid edirik. Laçın yolu açılmalıdır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə tanınır. Azərbaycan Qarabağ sakinlərini danışıqları bərpa etməyə çağırırıq ki, onlar sülh şəraitində yaşaya bilsinlər". Rusiya Federasiyasının nümayəndəsi isə söyləyib ki, sentyabrın 19-da eskalasiya baş verdi: "Rusiya sülhməramlıları atəşkəs üçün məsuliyyəti öz üzərinə götürdü. RMK-nın itkiləri var. 1000-dən çoxu uşaq olmaqla, 3000 mindən çox mülki şəxs sülhməramlıların bazasına sığınıb. Yevlax şəhərində tərəflərin görüşü keçirilib. Rusiya Federasiyası münaqişənin həllində böyük rol oynamaqda davam edir. Mövcud vəziyyətdən çıxmaq üçün yol xəritəsi hazırlanmalıdır. Rusiya Federasiyasının regiondakı rolunun alternativi yoxdur və o öz rolunu oynamağa davam edir. Biz humanitar problemlərin danışıqlar yolu ilə həll ediləcəyinə ümid edirik. Azərbaycan de-yure öz ərazisində hərbi əməliyyatlar həyata keçirib".

Yada salaq ki, 44 günlük müharibədən sonra bu, Fransanın üçüncü cəhdidir. Paris birinci dəfə keçən ilin dekabrında, sonra bu ilin 18 avqustunda Azərbaycan əleyhinə hansısa sənədin qəbuluna çalışıb. Bu dəfə isə Bakının Qarabağda apardığı birgünlük antiterror tədbirini bəhanə edərək təcili iclas tələb etmişdi. O da fiaksoya uğradı. Siyasi müşahidəçilərə görə, Fransanın bu tələbi daha çox onun daxili siyasəti, orada yaşayan erməni lobbisi ilə əlaqədardır. Məlum idi ki, Qarabağda Azərbaycanın yüksək səviyyədə, dəqiqliklə apardığı və artıq yekunlaşdırdığı antiterror tədbirlərindən sonra BMT TŞ-də hər hansı uğura nail olmayacaq. Çünki Bakı sırf beynəlxalq hüquqa uyğun öz ərazilərində antiterror tədbiri keçirib. Ertəsi gün isə Yevlaxda erməni icması ilə birbaşa dialoq başlayıb. Yəni Azərbaycanın hədəfi, məqsədi aydındır və yalnız sülhpərvərvər mahiyyət daşıyır. Heç bir uydurma "etnik təmizləmə" niyyətindən də söhbət getmir.

Bakı Politoloqlar Klubunun sədri Zaur Məmmədov hesab edir ki, iclas Türkiyənin birbaşa Azərbaycana dəstəyi, Rusiyanın nümayəndəsinin digərləri ilə müqayisədə hadisələrə düzgün olaraq Ermənistanın atdığı addımlar bucağında baxması fonunda, Almaniya XİN rəhbəri Berbokun Azərbaycana qarşı hamıdan sərt ifadələri ilə yadda qaldı: "Xanım Berbokun terrorçular haqqında bir cümlə belə deməməsi, ABŞ nümayəndəsinin çıxışı isə yəqin ki, erməni diasporasında ümidlərin puç olması isə nəticələndi. Ən maraqlısı isə bəzi nümayəndələrin Ermənistanda "demokratiyanı qorumaq zəruridir" tezisi idi. Sual olunur, Azərbaycanın öz ərazisində antiterror addımları ilə Ermənistandakı demokratiya arasında hansı bağlar var? Cavab məlumdur - Cozef Borrel və Berbok Qafqazda hadisələrə rəqibləri ilə münaqişə prizmasından yanaşırlar. Əsas odur ki, toplaşanlar, həmçinin Fransa, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsi ifadəsindən istifadə etdilər. Qarabağa status ifadələri tarixə qovuşdu. İclas separatizmə yer olmadığını göstərərək Azərbaycanın lehinə başa çatdı. Çünki iclasa qədər Azərbaycan artıq əsas məsələni həll etmişdi və rəsmi Bakının güclənən mövqeyi fonunda hər kəs reallığı qəbul etməli idi".

Siyasi şərhçi Asif Nərimanlının sözlərinə görə, gözlənildiyi kimi, Azərbaycana qarşı heç bir qərar, yaxud qətnamə qəbul edilmədi, sadəcə müzakirə edib dağılışdılar: "Ermənistanda daşnaklara ən pis təsir edən məqam isə Ceyhun Bayramovun çıxışında Azərbaycana qarşı ittihamlara cavab verərkən, Paşinyanın "Qarabağda ermənilərin Azərbaycan ordusu tərəfindən kütləvi öldürülməsi kimi iddialar yalandır" açıqlamasından sitat gətirməsidir. Bu məqamı xüsusilə tirajlayırlar, Nikola qarşı kampaniyada əsas tezisə çevirəcəkləri də bəllidir".

❑ **Emil SALAMOĞLU,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 170 (8306) 23 sentyabr 2023

Rusiya benzin ixracını məhdudlaşdırdı - Azərbaycana hansı təsirləri olacaq?

Ölkəmiz RF-dən ancaq Aİ95 markalı benzinin idxalını həyata keçirir

Rusiya Baş naziri Mixail Mişustinin imzaladığı qərara əsasən sentyabrın 21-dən etibarən bu ölkədən xaricə benzin və dizel yanacağının ixracı məhdudlaşdırılıb. Rusiya hökumətinin yaydığı açıqlamaya görə, bu addım daxili bazarı sabitləşdirmək üçün atılıb:



"Müvəqqəti məhdudiyyətlər yanacaq bazarını təmin etməyə kömək edəcək ki, bu da öz növbəsində istehlakçılar üçün qiymətləri aşağı salacaq. Əvvəl yanacaq bazarında vəziyyəti sabitləşdirmək üçün hökumət birjaya avtomobil benzini və dizel yanacağının tədarükü standartlarını artırıb. Həcmlərin operativ tənzimlənməsi ilə kənd təsərrüfatı istehsalçılarının ehtiyacları üçün yanacaq alışlarının monitorinqi də təşkil edilib".

Qeyd edək ki, qadağa bəzi yanacaq ehtiyatlarına şamil edilmir. Xüsusilə hökumətlərarası sazişlər çərçivəsində təchizat, humanitar yardım çərçivəsində verilən təchizat, yanacağın tranziti, onun ölkə hüdudlarından kənarda Rusiya Federasiyasının hərbi hissələrinə tədarükü, həmçinin Baykonur və Şpitsbergen şəhərlərinin fəaliyyətini dəstəkləmək üçün yanacağa aid edilmir. Məhdudiyyətlər həmçinin fiziki şəxslər tərəfindən şəxsi istifadə üçün yanacağın daşınması və Cənubi Osetiya və Abxaziyaya təchizata da tətbiq edilmir.

Buna baxmayaraq, Rusiya ekspertləri ixrac məhdudiyyətinin Rusiyanın neft məhsulları ixracının 95 faizini əhatə etdiyini bildirirlər. Onların bir çoxu qərarın müvəqqəti xarakterli olduğunu hesab etsələr də, sentyabrın 22-də Rusiya Energetika Nazirliyindən verilən açıqlamada qərarın müddətsiz olduğu qeyd edilib.

Rusiyada benzin və dizel yanacağı bu ilin aprelindən sürətlə bahalaşmağa başlayıb. Ötən müddət ərzində hər iki məhsulun topdansatış qiyməti 70-80 faiz, pərakəndə satış qiyməti isə 10-12 faiz bahalaşıb, Rusiyanın bir sıra regionlarında uzunmüddətli qıtlıq yaranıb. Hökumət bahalaşmanın əsas səbəbinin emal müəssisələrinin ixracın daha rentabelli olması səbəbindən mümkün qədər daha çox məhsulu ixraca yönəltməsi, daxili bazar hərraclarına az həcmlər göndərməsi ilə bağlı olduğunu elan edib. Bundan əlavə, boz ixracın - daxili hərraclardan alınaraq xaricə satışın da geniş vüsət aldığı qeyd olunurdu.

Rusiya ekspertlərinə görə, ölkədə neft məhsullarının, əsasən də benzin və dizelin çatışmazlığı və bahalığı bir neçə amillə bağlıdır. Əvvəla, Ukraynadakı müharibədə texnikanın, nəqliyyatın hərəkətini təmin etmək üçün çox böyük həcmdə yanacaq sərf olunur. Dövlət bu yanacağın təmin olunmasını şirkətlər qarşısında ilk vəzifə kimi qoyub. Müharibənin yanacaq sərfiyyatını artırmasına səbəb olan başqa amillər də var. Sanksiyalar bütün logistikanı alt-üst edbi, avtomobil yolu ilə yük daşımaları artıb. ATI.SU birjasının hesablamalarına görə, yanvar-iyun aylarında Rusiyada avtomobil yolu ilə yükdaşımalarına tələbat 61 faiz artıb. İndi onu daha da artırırlar və bu da yanacaq sərfiyyatını artırır.

Ölkədə neft emalı həcminin artmadığı bir şəraitdə əlavə istehlakın təmin olunması digər regionlara daha az yanacağın çatdırılması hesabına həyata keçirilir. Digər tərəfdən, yenə də Ukraynadakı müharibə səbəbilə dünya bazarında neft məhsullarının qiymətləri əlverişli həddədir və şirkətlər bu fürsətdən yararlanmağa çalışırlar, nəticədə, daha çox həcmləri ixraca yönəldirlər. Digər bir amil isə Rusiya hökumətinin aprel ayından bəri yanacaq qiymətlərinə tətbiq etdiyi dempferin həcmini azaltmasıdır. Belə ki, 2018-ci ildən tətbiq olunan mexanizmə əsasən benzin və dizelin daxilindəki qiymətlərdən baha olduqda, hökumət fərqi emal müəssisələrinə ödəyir. Dünya bazar qiyməti daxili bazardan aşağı olduqda isə emal müəssisələrinin daxildə yanacaq satışından qazancından vergi tutulur. İndiyədək bu mexanizmin yalnız birinci hissəsi işləyib: yəni dünya bazar qiyməti həmişə daxili bazardakından yüksək olub. Rusiya hökuməti son 5 ildə daxildə satışla ixracın fərqinin benzin üçün 68 faizini, dizel üçün 65 faizini emal müəssisələrinə ödəyib. 2022-ci ildə bu mexanizm çərçivəsində büdcədən neftçilərə 2,2 trilyon rubl, 2023-cü ildə isə təkcə may ayında 100 milyarddan çox vəsait köçürülüb. Ötən il ümumilikdə büdcənin neft gəlirləri 11,6 trilyon rubl olub ki, bu da onun 20 faizə yaxının geri qaytarılması deməkdir.

Bu ilin əvvəlində Rusiyanın müharibə xərclərinin kəskin artımı fonunda neft-qaz gəlirlərinin azalması hökuməti neft məhsullarının ixracına münasibətdə tətbiq olunan dempefer mexanizminə dəyişiklik etmək qərarına gəlindi. Maliyyə Nazirliyi əlavə ödənişin yarıya qədər azaldılmasını təklif etdi. Nazir Anton Siluanov bildirdi ki, dempfer ödənişinin azalması ayda Rusiya büdcəsi xərclərinə 30 milyard rubl qənaət imkanı yaradacaq. Maliyyə Nazirliyinin bu qərarı açıqlandıqdan dərhal sonra Rusiyada benzin və dizel yanacağının bahalaşması qeydə alındı. May-iyun aylarında emal zavodlarında profilaktik təmir işləri ilə bağlı istehsal azaldıqda isə bahalaşma pik həddinə çatdı. Hökumətin şirkətlərdən pərakəndə satışı qiymətlərini artırmamaq tələbi faktiki olaraq yanacaqdoldurma şəbəkələrini gəlirsiz qoydu. Nəticədə, benzin ticarəti iyunun ortalarından, dizel yanacağı - avqustun ortalarından bəri gəlirsiz olub.

Energetika Nazirliyinin məlumatına görə, Rusiya neft emalı zavodları 2021-ci və 2022-ci ilin avqustunda olduğu kimi təxminən eyni miqdarda benzin istehsal edir. Düzdür, ixrac azalıb. Avqustda Rusiyadan neft məhsullarının ixracı son 10 ayın ən aşağı həddinə düşüb. S&P şirkətinin məlumatına görə, avqustda gündə 2,27 milyon barel (3 milyon barellə pik həddi martda olub) neft məhsulları ixrac olunub.

Onu da qeyd edək ki, Azərbaycan Rusiyadan Aİ95 markalı benzinin idxalını həyata keçirir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən Azərbaycan 2022-ci ildə 102 milyon 540,18 min dollar dəyərində (2021-ci illə müqayisədə 7,7 faiz azalma) 99 min 490,98 ton "Premium Euro-95" markalı avtomobil benzini (azalma 32,5 faiz) idxal edib. Həmçinin ölkəyə 2 milyon 52,49 min dollar dəyərində (azalma 14,3 faiz) 1670,95 ton (azalma 37,8 faiz) "Super Euro-98" avtomobil benzini gətirilib.

Uzun illər boyu Aİ-95 markalı benzinin idxalında üstünlük Rumıniyada olsa da, ötən il Rusiyadan idxal həcmi daha çox olub. Belə ki, bu markalı benzinin 73,4 faizi Rusiyadan alınıb. Bu ilin yeddi ayında Azərbaycan 23 milyon 377,93 min dollar dəyərində 29 381,94 ton Aİ92, 41 milyon 192,05 min dollar dəyərində 43 741,37 ton Aİ95 benzini idxal edib.

Yeddi Aİ95 idxalında Rusiyadan asılılıq qalıb. Belə ki, yeddi ayda Belarusdan 10 milyon 868,48 min dollarlıq 11 918,7 ton, Rusiyadan 25 milyon 48,79 min dollar dəyərində 26 687,2 ton, Rumıniyadan 5 milyon 274,78 min dollar dəyərində 5135,48 ton Aİ95 benzin idxal edilib. Bu isə o deməkdir ki, Rusiyadan ixracın məhdudlaşması fonunda Azərbaycan Aİ95 idxalını digər ölkələrdən reallaşdırmağa məcbur olacaq. Logistika və nəqliyyat xərcləri baxımından ən əlverişli idxal bazarının Rusiya olduğunu nəzərə alsaq, digər ölkələrdən idxalın qiymətlərdə artıma gətirəcəyini söyləyə bilərik. Üstəlik, dünya bazarında neft qiymətlərinin yüksəlməsi ilə həmin ölkələrdə benzinin qiymətinin də artması qaçılmazdır.

Rusiyadan benzin ixracına məhdudiyyət Azərbaycana daha bir mənfi təsiri Bakı Neft Emalı Zavodunun illik ənənəvi təmiri müddətində ölkəmizdə ən çox istehlak olunan Aİ92 benzini ilə təminat sahəsində ola bilər. Belə ki, adətən hər ilin oktyabr-noyabr aylarında Bakı NEZ-də bir aylıq profilaktik təmir həyata keçirilir. Həmin müddətdə Azərbaycan daxili tələbatı ödəmək üçün Aİ92-ni xaricdən, əsasən Rusiyadan idxal edir. Belə görünür ki, bu il Rusiyadan idxal mümkün olmayacaq. Bu zaman ağırlığın Türkmənistana salınması mümkündür, əgər oradakı mövcud ixrac potensialı imkan verərsə.

Yeri gəlmişkən, yanvar-avqust aylarında Azərbaycan Rusiyadan 4 milyon 656,59 min dollar dəyərində 7 529,05 ton, Türkmənistandan 18 milyon 721,35 min dollar dəyərində 21 852,9 ton Aİ92 alıb, Türkiyəyə 21 milyon 499 min dollar dəyərində 30 790,98 ton Aİ92 ixrac edib.

Rəsmi statistikaya əsasən səkkiz ayda Azərbaycanda neft məhsullarının istehsalı sahəsində istehsalın ümumi dəyəri 2 milyard 974,1 milyon manat olmaqla, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 13,0 faiz artıb. Bu zaman neft məhsullarından sürtkü yağlarının istehsalı 70,9 faiz, neft koksunun istehsalı 37,8 faiz, qazoylların (dizel yanacağının) istehsalı 22,4 faiz, avtomobil benzininin istehsalı 21,3 faiz artıb, neft bitumu istehsalı 33,4 faiz, mazut istehsalı isə 92,3 faiz azalıb. Bu dövrdə 951,2 ton benzin, 1547,4 ton dizel yanacağı istehsal olunub.

Məlumat üçün bildirək ki, Azərbaycanda "Aİ-95" premium və "Aİ-98" super markalı benzinin qiyməti sonuncu dəfə 2022-ci ilin iyulunda dəyişib: Aİ-95 benzinin litri 1 manat 60 qəpikdən 2 manata, AI-98 super benzin isə 2 manatdan 2 manat 30 qəpiyə qaldırılıb.

Aİ92 və dizelin qiyməti isə 2021-ci ilin yanvarında artırılıb: Aİ92 90 qəpikdən 1 manata, dizel isə 60 qəpikdən 80 qəpiyə.

❑ **Dünya SAKİT,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 170 (8306) 23 sentyabr 2023

Tədricən azalan neft-qaz gəlirlərinin yerini necə dolduracağıq - təhlil

Vüqar Bayramov: "Büdcə daxilolmalarında fərqli sektorların payının artmasını müşahidə edirik"

Azərbaycanın dövlət büdcəsinin gəlirləri 2027-ci ildə 16 227,6 mln. manat təşkil edəcək, bu da 2023-ci ilin proqnoz göstəricisi ilə müqayisədə 8,5% azalma deməkdir.

Proqnoza görə, 2024-cü ildə dövlət büdcəsinin neft-qaz gəlirləri 16 756 mln. manat səviyyəsində olacaq ki, bu da 2023-cü ilin proqnoz göstəricisindən 5,54% azdır.

Məlumata görə, 2023-cü ildə dövlət büdcəsinin gəlirləri 17 739,7 mln. manat həcmində proqnozlaşdırılıb, bu da illik müqayisədə (2022-ci il - 15 329,6 mln. manat) 15,7% çoxdur.

Proqnoza əsasən, 2015-ci ildə dövlət büdcəsinin gəlirləri 17 701,3 mln. manat, 2026-cı ildə isə 16 839,3 mln. manat səviyyəsində olacaq.

Proqnozlardan görünür ki, qarşıdakı bir neçə il ərzində büdcəmizin əsas gəlir mənbəyi olan neft-qaz sahəsindən gəlirlər azalacaq və azalacağı proqnozlaşdırılan rəqəm elə də kiçik sayılmaz.

Bəs bu boşluğu hansı mənbələr hesabına doldura bilərik? Buna hazırlıqlar başlayıbmı?

Mövzu ilə bağlı millət vəkili, iqtisadçı alim Vüqar Bayramov "Yeni Müsavat"a danışıb:

"Növbəti illərin dövlət büdcəsində ən vacib məqamlardan biri məhz qeyri-neft sektorunun büdcə gəlirlərində payının artmasıdır. Nəzərə alsaq ki, qeyri-neft sektorunun payı neft sektoru ilə müqayisədə artır və növbəti illər bu özünü daha çox göstərəcək. Bu əslində müsbət məqamdır, çünki məqsəd də ondan ibarət idi ki, qeyri-neft, yəni, enerjidən kənar sektorlardan daha çox vəsaitin cəlb edilməsinə nail olmaq mümkün olsun. Bu baxımdan büdcənin gəlirləri hissəsində struktur olaraq dəyişikliyin olması artıq neft sektorunun deyil, məhz enerjidən kənar sektorların önə çıxmasına imkan yaradır.

Qeyri-neft sektorunda daxilolmalara baxsaq, burada fərqli istiqamətlərdən, biznesdən, real sektordan daxilolmalar var və bu özünü əlavə dəyər vergisi və mənfəət vergisində göstərir. Eyni zamanda digər daxilolmalar məhz əlavə dəyər vergisi kimi dolayı vergilər üzrədir.

Amma sektorlar üzrə baxanda biz büdcə daxilolmalarında fərqli sektorların payının artmasını müşahidə edirik. Bu özünü xüsusən sənaye və xidmətlər sektorunda göstərir. Çünki aqrar sektorda vergi güzəştləri var, sənaye və xidmətlər sektorundan büdcə daxilolmaların artması müşahidə olunur ki, bu da praktik olaraq real sektorun büdcə gəlirlərində payının çox olmasına imkan yaradır".

İqtisadçı Rəşad Həsənov isə qeyd edib:

"Ümumilikdə götürəndə proseslərin daha aydın təsviri üçün dövlət büdcəsinin gəlirlərini 3 kateqoriya üzrə qruplaşdırmaq daha faydalı olar. Birinci kateqoriya qeyri-neft sektorundan əldə olunan gəlirlərdir, hansı ki, bura Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmalar, dövlət xidmətlərinin göstərilməsindən digər qurumların əldə etdiyi gəlirlər və sairə bu kimi mənbələrdən daxilolmalar aiddir.

İkincisi, neft sektoru üzrə birbaşa daxilolmalar kimi qiymətləndirilə bilər ki, bura neft sektorundan daxil olan vergiləri aid etmək lazımdır.

Üçüncü, neft sektorundan dolayı gəlirlər - bunu da Neft Fondundan transferlər kimi qiymətləndirə bilərik. Gələcəkdə dövlət büdcəsinə neft sektorundan gəlirlərin azalacağı barədə proqnozlar deyərkən, nisbətən daha ehtiyatlı ifadələrin seçilməsinə ehtiyac var. Bu sadəcə ilkin yanaşmadır, hökumət belə düşünür ki, gələcək illərdə qeyri-neft mənbələri hesabına dövlət büdcəsinə daxilolmaların artımına nail olacaqdır və bunun əvəzində isə Neft Fondundan daha az pul transfer edəcək. Neft Fondundan transferlərinin xüsusiyyəti digər mənbələrdən olan gəlirlərlə müqayisədə onunla fərqlənir ki, burada toplanmış vəsait qalıqları vardır. Bu, dövlət büdcəsinin daha elastik xüsusiyyətlərə malik olan gəlir mənbəyi kimi xarakterizə olunmalıdır. Bununla da hökumət gələcəkdə qeyri-neft sektorundan gəlirlərin artması ehtimalı qarşısında neft sektorunun gəlirlərini az göstərir, çünki Neft Fondundan ayırmaları daha az göstərir.



Amma növbəti mərhələdə konduktor dəyişərsə, daha böyük xərcləmələr ehtiyacı, büdcə xərcləri, büdcə kəsirləri artarsa, bu zaman Neft Fondundan daha çox vəsait transfer edəcək. Hansı ki, biz bunu 2015-ci il sonrası dövrdə müşahidə etdik. İlkin olaraq azalma yolu seçildi, sonradan bu vəsaitlərin həcmi yenidən artırıldı.

Eyni zamanda ölkədə 2020-ci ildə pandemiya səbəbindən büdcə qaydası tətbiqinin təxirə salınması təcrübəsi var, hansı ki, hökumət gələcəkdə risk yarananda yenidən bu yolu seçə, yəni büdcə qaydasını dayandıraraq, Neft Fondundan transferlərin həcmini daha da artıra bilər.

Amma burada əsas məsələ odur ki, Azərbaycanda ilk dəfə olaraq dövlət büdcəsinin gəlirlərində qeyri-neftin mənbələrinin həcmi 50 faizin üzərində oldu. Yəni bu, artıq müharibənin başa çatması istiqamətində yaranmış yeni şərtlər, şərait, konduktor gələcəkdə hərbi xərclərin daha məqbul səviyyədə saxlanılması imkanını yaratmaqla dövlət büdcəsinin gəlirləri və xərclərinin artım tempini tənzimləməyə, balanslaşdırmağa və dolayısı ilə Neft Fondundan transferlərin həcmini tənzimləməyə şərait yaradır.

Təbii ki, daha rasional iqtisadi siyasət həyata keçirməklə iqtisadiyyatın böyüməsində nəticələrin əldə edilməsi çox zəruridir. Bu istiqamətdə daha fundamental siyasətlərin hazırlanaraq icra edilməsinə ehtiyac var. Və bu siyasətlər mərhələli şəkildə gələcəkdə büdcənin digər mənbələrdən, yəni qeyri-neft mənbələrindən daxilolmalarına da pozitiv təsir göstərə bilər".

❑ **Xalidə GƏRAY,**
"Yeni Müsavat

Sosial-iqtisadi inkişafa dair 5 milli prioritet - cəmiyyət nə qazanacaq...

Natiq Cəfərli: "Çox yaxşı olardı ki, bu iş planları keçmişdəki kimi yarımçıq yox, ölçüləbilən olsun"

Sosial iqtisadi inkişafa dair 5 milli prioritet müəyyən olunub. Bunlar ölkəmizin gələcək inkişaf istiqamətlərini təşkil edir. Prezidentin sərəncamı ilə 2022-26-cı illər Azərbaycanın sosial iqtisadi inkişaf starategiyası qəbul edilib. Strategiyada İqtisadiyyat Nazirliyinə yeni nəsil iqtisadiyyat strategiyasının hazırlanması tapşırılıb.

Bu barədə İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib.

O qeyd edib ki, iqtisadiyyat stategiyasının hazırlanması ilə bağlı komissiya yaradılıb və layihə hazırlanaraq aidiyyəti üzrə təqdim olunub:

"Əsas prioritet kibertəhlükəsizliklə bağlıdır. Hazırda Şərqi Zəngəzurda, Qarabağda geniş yenidənqurma işləri həyata keçirilir. Məqsəd işğaldan azad olunan ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyasıdır. Bu baxımdan rəqəmsallaşma tədbirləri də ön plana çıxır. Rəqəmsal iqtisadiyyatın tətbiqi üçün kibertəhlükəsizliyin təminatı çox vacibdir. "Big data", süni intellekt, əşyaların interneti sahəsi, rəqəmsal marketinq, dron texnologiyalarının tətbiqi və digər istiqamətlər rəqəmsal iqtisadiyyatın inkişafı üçün zəruri sahələrdir. Bunların uğurlu və dayanıqlı tətbiqi üçün kibertəhlükəsizlik baxımından kadr potensialının hazırlanması da zəruri məsələlərdəndir. Ölkəmizin kibertəhlükəsizlik sahəsində qarşıya qoyulan məqsədlərə nail olması üçün lazımi normativ hüquqi baza hazırlanıb".



Xatırladaq ki, dövlət başçısı İlham Əliyev "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prıoritetlər"in təsdiq edilməsi ilə bağlı 2021-ci il fevralın 2-də müvafiq sərəncam imzalayıb. Bununla da sosial-iqtisadi inkişafa dair Milli Prıoritetlərin təsdiqi ilə iqtisadi inkişafında keyfiyyətcə yeni bir mərhələnin əsası qoyulub və həmin vaxtdan qeyri-neft-qaz sektorunun gücləndirilməsi prioritet istiqamətə çevrilib. Eyni zamanda, sözügedən Milli Prioritetlərdə davamlı və yüksək iqtisadi artıma nail olunması, həmçinin bu məsələdə daxili və xarici təsirlərin azaldılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Dövlət başçısının "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında 22 iyul 2022-ci il tarixli sərəncamı da nəzərndə tutulan Milli Prioritetlərin gerçəkləşdirilməsini təmin etmək məqsədilə imzalayıb. Ölkə rəhbəri mühüm önəm daşıyan və 5 illik bir dövrü əhatə edən bu sənədlə planlaşdırılan müəyyən layihələrin əlaqələndirilməsini, reallaşdırılmasına nəzarəti və hesabatlılığını həyata keçirməyi qarşıya mühüm vəzifə kimi qoyub.

Bəs bu 5 milli prioritet konkret nədən ibarətdir? Bunlar nə vaxt tətbiq olunmağa başlayacaq? Cəmiyyət nə qazanacaq?

İqtisadçı ekspert Natiq Cəfərli mövzu ilə bağlı "Yeni Müsavat"a açıqlamasında deyib:

"Azərbaycanda dəfələrlə buna bənzər proqramlar qəbul olunub. Yəni milli prioritetlərlə bağlı 2010-2020-ci və 2020-2026-cı illər proqramları qəbul olunub. Həmişə bir neçə sahə, o cümlədən, turizm, kənd təsərrüfatı, aqrar, informasiya texnologiyaları sahəsi önə çıxıb. Amma təəssüf ki, bunun ölçüləbilənliyi yoxdur.

Elmdən belə məlumdur ki, hansısa bir proqram qəbul edərkən onun icra mexanizmləri ilə bağlı ayrıca indiqatorlar qoyulur ki, hansı müddətə icra olunacağı və icra olunandan sonra hansı nəticələr əldə ediləcəyi müəyyən edilsin. Təəssüf ki, bizdə çatışmayan ən vacib məsələ bu indiqatorların olmamasıdır. Yəni proqramlar qəbul olunur, amma onun ölçüləbilənliyi və nəticəyə hesablanan parametrləri ilə bağlı sonradan problemlər yaşanır, elan olunmur ki, hansı məqsəd, hədəflər qoyulmuşdu və hədəflərin neçə faizinə nə qədər çatmaq mümkün oldu və sairə.

Təbii ki, niyyət, proqram, istiqamətlər olaraq çox təqdirəlayiq haldır ki, Azərbaycan hökuməti bir neçə istiqamət üzrə yenidən prioritet istiqamətlər elan edib və bununla bağlı iş planı hazırlayır. Amma çox yaxşı olardı ki, bu iş planları keçmişdə olduğu kimi yarımçıq olmasın, ölçüləbilən olsun. Yəni, hədəflərə nə zaman və necə çatacağımızla bağlı aydın təsəvvürlərimiz olmalıdır. Belə olan halda sosial məsələlərin həllinə, ümumiyyətlə, yeni bir sosial problemlərin çağırışlarının həllinə nail olarıq. O cümlədən işğaldan azad olunmuş bölgələrimizin iqtisadiyyata qazandırılmasının da müsbət təsirləri olacaq".

❑ **Xalidə GƏRAY,**
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 170 (8306) 23 sentyabr 2023

ABŞ dolları baha, Türkiyə lirəsi ucuz - Azərbaycan manatı?

İqtisadiyyat Nazirliyinin proqnozuna əsasən, 2026-cı ilin sonunadək dolların məzənnəsi 1 dollar=1,7 manat səviyyəsində qalacaq

Dünyanın əksər böyük iqtisadiyyatlarında faiz dərəcələri üzrə yeni qərarlar verilib. Belə ki, sentyabrın 15-də Avropa Mərkəzi Bankı hər üç əsas faiz dərəcəsini 25 faiz bəndi artırmaq qərarına gəlib. Qərarla kreditlər üzrə baza dərəcəsi 4,5 faizə, depozitlər üzrə faiz dərəcəsi 4 faizə, marja kreditləri üzrə faiz dərəcəsi 4,75 faizə qədər artırılıb.



Dünyanın ikinci böyük iqtisadiyyatına sahib Çində hökumət inflyasiya deyil, deflyasiya ilə mübarizə apardığına görə Çin Xalq Bankı kreditlər üzrə baza faiz dərəcəsini illik 3,45 faiz olmaqla dəyişməz saxlayıb. Bu, Çin tarixində ən aşağı həddi hesab olunur. Çin Xalq Bankı həmçinin 5 illik kreditlər üzrə faiz dərəcəsini 4,2 faiz illik səviyyədə saxlayıb. Bundan əvvəl isə Bank ortamüddətli kreditlərin illik faiz dərəcəsini mövcud 2,5 faizlik həddə dəyişməz saxlamışdı.

Sentyabrın 20-də Böyük Britaniya Bankı gözlənilmədən uçot dərəcəsini 5,25 faiz həddində saxlamaq barədə qərar qəbul edib. Halbuki bazar iştirakçıları uçot dərəcəsinin 0,25 faiz bəndi artırılaraq 5,5 faizə çatdırılacağını gözləyirdilər. Analitiklərə görə, faiz dərəcəsinin dəyişməməsinin əsas səbəbi avqustda Böyük Britaniyada inflyasiyanın azalaraq, 2022-ci ilin fevralından bəri ən aşağı həddə düşməsidir.

Sentyabrın 21-də Türkiyə Mərkəzi Bankının (TMB) Pul siyasəti komitəsinin iclasında uçot dərəcəsi 5 faiz bəndi artırılaraq 25 faizdən 30 faizə qaldırılıb. Xatırladaq ki, uçot dərəcəsi TMB-nin bu il avqustun 24-də keçirilmiş iclasında 17,5 faizdən 25 faizə çatdırılmışdı.

Nəhayət, ABŞ Federal Ehtiyatlar Sisteminin(FED) sentyabrın 20-də keçirilən iclasında uçot dərəcəsinin mövcud 5,5 faiz səviyyəsində saxlanması barədə qərar qəbul edib. İclasdan sonra verilən açıqlamada qeyd olunur ki, qərar yekdilliklə qəbul edilib və tənzimləyici inflyasiya risklərini yaxından izləyir. Bundan əlavə, keçən il açıqlanan plana uyğun olaraq, FED balansını azaltmağa davam edir. Azalma müddəti bitmiş qiymətli kağızlardan alınan vəsaitlərin yenidən investisiyaya yönədilməməsi hesabına baş verir. Mart ayından indiyə bu rəqəm 8,7 trilyon dollardan 8,1 trilyon dollara düşüb. Hazırda maksimum geri alma həcmi ABŞ dövlət istiqrazlarında 60 milyard dollar və ipoteka qiymətli kağızlarında 35 milyard dollardır. Ehtimal olunur ki, 2024-cü ildə balansdan qiymətli kağızların satışına başlamaq mümkündür. Lakin bu ssenarinin reallaşma ehtimalı hələ aydın deyil.

İclasdan sonra FED rəhbərliyi bəyan edib ki, Amerika iqtisadiyyatında böyümə sürətlənib. Son aylarda iş yerlərinin artımı yavaşlasa da, hələ də güclü olaraq qalıb. İşsizlik aşağı səviyyədə, inflyasiya isə hədəf göstəricisindən yüksək olaraq qalır.

ABŞ-ın bank sistemi sabitdir. Ev təsərrüfatları və müəssisələr üçün sərt kredit şərtləri iqtisadi fəaliyyətə, işə qəbula və inflyasiyaya təsir göstərə bilər. Federal Açıq Bazar Komitəsi (FOMC) inflyasiya risklərinə diqqətlə yanaşır.

Qeyd edək ki, FED-in hədəfi maksimum məşğulluq və 2 faizlik inflyasiyadır. Avqust ayında istehlak qiymətləri illik 3,7 faiz artıb. İyun ayındakı 3 faizlik inflyasiya ilə müqayisədə son 2 ayda artım dinamikası müşahidə olunur ki, bunun da əsas səbəbi neft qiymətlərindəki bahalaşmadır.

Açıq Bazar Komitəsi iqtisadi göstəricilər və əsas məzənnə üzrə yeni proqnoz təqdim edib. Proqnozlardan aydın olur ki, iyun ayı proqnozu ilə müqayisədə iqtisadi qiymətləndirmə yaxşılaşıb. Belə ki, 2023-cü ildə ÜDM-in iyunda proqnozlaşdırılan 1 faiz əvəzinə 2,1 faiz, 2024-cü ildə 1,1 faiz əvəzinə 1,5 faiz artması gözlənilir. İşsizlik səviyyəsi 3,8 faiz və 4,1 faiz olacaq. FED inflyasiya təxminlərini cüzi artıraraq 2023-cü ildə 3,3 faizə, 2024-cü ildə 2,5 faizə, 2025-ci ildə 2,2 faizə çatdırıb.

Əsas dərəcənin azaldılması proqnozu daha mühafizəkardır - gələn il 5,5 faizdən 5,1 faizə və 2025-ci ildə 3,9 faizə qədər, uzunmüddətli dövrdə (2026-cı ildən sonra) - 2,5 faizə qədər.

FED rəhbəri Cerom Pauelin sözlərinə görə, FED zərurət yaranarsa, pul siyasətini sərtləşdirməyə davam etməyə hazırdır. Tənzimləyici daxil olan makroiqtisadi məlumatlar əsasında əlavə qərarlar qəbul edəcək. Onun sözlərinə görə, iqtisadiyyatın "yumşaq enişi" FED-in məqsədlərindən biridir.

İqtisadçı-ekspert Elman Sadıqovun sözlərinə görə, FED-in faiz dərəcələrini dəyişməyəcəyi əvvəlcədən gözlənilirdi: "Ölkədə işsizlik 3,8 faiz həddindədir ki, bu da məqbul həddir. FED bu göstəricinin 4-4,1 faiz həddinə çatmasını da məqbul variant hesab edir. Tənzimləyiciyə görə, işsizliyin bu həddə qədər artmasına iqtisadiyyatın dözüm gücü imkan verir. Burada narahatedici bir məqam var ki, iyul və avqust aylarında inflyasiyanın sürətlənməsi qeydə alınıb. Bu fakta görə FED-in uçot dərəcəsini artıracağını gözləyənlər də vardı. Lakin nəzərə almaq lazımdır ki, dollar yalnız ABŞ-ın milli valyutası deyil, qlobal iqtisadiyyatın əsas dönər valyutasıdır. Bu gün ABŞ dolların 5,25-5,5 faiz dərəcəsinə davam gətirirsə, dözə bilirsə, bu, o demək deyil ki, qlobal iqtisadiyyat üçün də məqbuldur. Qlobal iqtisadiyyatda, ayrı-ayrı ölkələrin iqtisadiyyatlarında bahalı dollar bir sıra problemlər yaradır: borcların ödənməsi, tədiyə balanslarında mənfi saldonun artımı və sair. Bahalı dollar dünyadan ABŞ iqtisadiyyatına investisiyaları artırmaqla qlobal iqtisadiyyatda dollar qıtlığı yaradır. Buna görə də FED-in inflyasiyanın artmasını hələlik sadəcə, müşahidə etməklə kifayətlənəcək. Qurum özü də bəyan edir ki, prosesləri yaxından izləyir və ABŞ iqtisadiyyatında hər hansı mənfi tendensiya müşahidə olunduğu halda uçot dərəcəsini artırmaq qərarı verə bilər".

Azərbaycanın ixrac gəlirlərinin əsasını təşkil edən dollarla yanaşı, əsas xarici ticarət partnyorlarımızdan biri olan Türkiyədəki monetar siyasət də ölkəmiz üçün əhəmiyyətli rol oynayır. Bu ilin 8 ayı üzrə Türkiyə ölkəmizin ikinci böyük xarici ticarət tərəfdaşıdır, qeyri-neft ixracımızda ikinci, idxalımızda 3-cü ölkədir. Bu baxımdan, qardaş ölkədə milli valyutanın məzənnəsindəki dəyişiklik Azərbaycanda yaxından izlənir. Türkiyə Mərkəzi Bankının son 5 ayda monetar siyasəti son dərəcə sərtləşdirməsi diqqəti cəlb edir.

E.Sadıqov deyir ki, Türkiyənin maliyyə naziri Mehmet Şimşek və Mərkəzi Bankın rəhbəri xanım Qaya ortodoks iqtisadi nəzəriyyənin tələb etdiyi addımları atırlar: "Düşünürəm ki, bu, düzgün yanaşma və siyasətdir. Yeni hökumət Türkiyənin ortamüddətli dövr üçün iqtisadi inkişaf proqramını açıqlayıb. Mehmet Şimşək hələ nazir təyin olunmazdan əvvəl Türkiyənin ilk növbədə inflyasiya ilə deyil, tədiyə balansındakı mənfi saldo ilə mübarizə aparmalı olduğunu bildirmişdi. Onun nazir olmasından sonra bu mənfi saldo 10-12 milyard dollardan 5 milyard dollar civarına qədər azalıb ki, bu da çox müsbət haldır. Hazırda Türkiyədə lirənin məzənnəsinə hər hansı inzibati müdaxilə yoxdur, onu bazar tənzimləyir. Bu isə Mərkəzi Bankın məzənnəni saxlamaq üçün izafi xərclərə getməməsinə, əksinə, ehtiyatlarını artırmasına gətirib çıxarır".

Ekspert qeyd edir ki, əslində faizlərin artımı inflyasiyanı tətikləyən amildir: "Lakin əgər inflyasiya artmırsa, faizlərin artımı ixracın stimullaşmasına gətirib çıxarır. Bu gün yürüdülən siyasətin əsası budur ki, dolların kursunu Mərkəzi Bankın müdaxilələri deyil, bazar özü müəyyən edir. Bu baxımdan, Türkiyə hökumətinin də gözləntiləri budur ki, dolların kursunun artması davam edə bilər. Lakin bu proses kəskin sıçrayışlar formasında baş verməyib, tədricən gedəcək. Hökumət dolların kursunun cilovlanması ilə eyni vaxtda inflyasiya ilə mübarizə aparmaq, həm də xarici ticarət balansında mənfi saldonu azaltmaq niyyətində deyil. Buna görə də cari ilin yekununda Türkiyədə inflyasiyanın 63-65 faiz həddində olması gözlənilir. Türkiyə hökumətinin proqramından da görünür ki, ortamüddətli dövrdə inflyasiyanın təkrəqəmli həddə düşməsini gözləmirlər, bunun real olmadığını bilirlər. 2024-cü ilin ikinci yarısından inflyasiyanın davamlı şəkildə aşağı düşməsi, 2026-cı illərdən hədəf göstəricisinə çatması planlaşdırılır. Bu, əlbəttə, ağrılı prosesdir, lakin eyni zamanda keçilməsi zərurət olan prosesdir".

E.Sadıqov Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun Türkiyəyə dəstək verməsi investorların inamını artıran amil kimi çıxış edir: "Lakin uzun illərdin yığılan problemlərin qısa müddətdə həll olunaraq tam aradan qaldırılması mümkün deyil. Buna görə də investorların inamı da onların həlli ilə eyni vaxtda dəyişəcək: problemlər azaldıqca, investorların inamı da artacaq. Bu baxımdan, qardaş Türkiyə iqtisadiyyatının problemli dönəmdən çıxaraq davamlı inkişaf yoluna qədəm qoyması xeyli müddət və əziyyət tələb edəcək".

Onu da qeyd edək ki, Azərbaycan Mərkəzi Bankı da sentyabrın 20-də uçot dərəcəsinə yenidən baxıb. Qurumun İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 9 faiz, faiz dəhlizinin aşağı həddi 7.5 faiz, faiz dəhlizinin yuxarı həddi isə 10 faiz səviyyəsində dəyişməz saxlanılıb.

Azərbaycan İqtisadiyyat Nazirliyinin proqnozuna əsasən, 2026-cı ilin sonunadək dolların məzənnəsi 1 dollar=1,7 manat səviyyəsində qalacaq.

❑ Dünya SAKİT,
"Yeni Müsavat"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

İqtisadiyyat

YENİ MÜSAVAT

N 170 (8306) 23 sentyabr 2023

Azərbaycan dövlət investisiyalarını özəl investisiyalarla əvəzləmək istəyir - mexanizm...

Əməkdaşlıq etdiyimiz beynəlxalq maliyyə institutlarından xarici borcun cəlb edilməsi nəzərdə tutulur



Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

Rəsmi statistikaya əsasən, Azərbaycanda qeyri-neft-qaz sektoru üzrə investisiya qoyuluşları 2023-cü ilin yanvar-avqust aylarında ötən ilin müvafiq dövrünə nisbətən 17,1 faiz artıb. Bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında yazıb. Nazir qeyd edib ki, qeyri-neft-qaz sektoru üzrə investisiya qoyuluşları 7 milyard 98,8 milyon manata çatıb.

Diqqəti cəlb edən məqam budur ki, ölkə üzrə ümumi investisiya qoyuluşlarında dövlətin payı yüksək olaraq qalır. Belə ki, bu ilin səkkiz ayında Azərbaycan iqtisadiyyatına qoyulmuş 10 milyard 864,8 milyon manat investisiyanın 53,7 faizi dövlət tərəfindən yatırılan sərmayələrdir. Ümumi investisiyaların çox mühüm hissəsi - 76,7 faizi daxili mənbələrdən yatırılıb. Son illərdə Azərbaycan iqtisadiyyatına, xüsusilə də qeyri-neft-qaz sektoruna xarici birbaşa investisiyaların azalması prosesi bu il də davam edir. Azərbaycan Mərkəzi Bankının rəsmi məlumatına əsasən bu ilin birinci yarısında iqtisadiyyata birbaşa xarici investisiyaların həcmi 3 milyard dollar təşkil edib. Bunun cəmi 717 milyon dolları qeyri-neft-qaz sektoruna yatırılıb. Bu isə qeyri-neft sektoruna cəlb olunan birbaşa xarici investisiyaların həcmində 35 faiz azalma qeydə alınması deməkdir.

Azərbaycan hökuməti 2023-cü ildə əsas kapitala olan investisiyalarda 7,7 faiz, ortamüddətli dövrdə isə orta illik 1,6 faiz artım olacağını proqnozlaşdırır: "Qarşıdakı dövr ərzində neft-qaz sektoru üzrə olan investisiyalarda azalma, digər sahələr üzrə isə artım müşahidə ediləcək. Belə ki, digər sahələr üzrə investisiyalar 2023-cü ildə 13,4 milyard manat proqnozlaşdırıldığı halda, 2027-ci ildə 16,9 milyard manata yüksələcək".

Azərbaycanda özəl investisiyaların, xüsusilə də xarici investisiyaların uzun illərdir artmamasının əsas səbəblərindən biri olaraq ölkədə mülkiyyət hüququnun, biznesin hüquqlarının müdafiəsi sahəsində mövcud olan ciddi problemlər, xüsusilə də məhkəmə sistemindəki nöqsanlar qeyd olunur. Daha bir mühüm problem yüksək inhisarlaşma və onun səbəb olduğu qeyri-sağlam rəqabət mühitinin olmasıdır.



Azərbaycan hökuməti yaxın 3 il ərzində iqtisadiyyata investisiya qoyuluşlarında özəl sektorun payını artırıb, dövlətin payını azaltmaq niyyətindədir. 2024-cü il üzrə dövlət büdcəsi sənədində qeyd olunur ki, milli xərc prioritetlərinə daxil olan, xüsusilə də işğaldan azad edilmiş ərazilərin bərpası və yenidənqurulması ilə bağlı layihələrin maliyyələşdirilməsinə özəl investisiyaların cəlb olunması məqsədilə əlverişli və etibarlı investisiya mühitinin yaradılması sahəsində görüləcək işlər dəstəklənəcək.

Həmçinin bildirilir ki, ölkə iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətinin gücləndirilməsi, daha dayanıqlı və inklüziv iqtisadi artım mənbələrinin yaradılması, qeyri-neft ixracının stimullaşdırılması, iqtisadiyyatın liberallaşdırılması, investisiya mühitinin yaxşılaşdırılması üçün daha təsiredici addımların atılması, dövlət əmlakının özəlləşdirilməsinin və aktivlərinin satışının sürətləndirilməsi, dövlət müəssisələrində mütərəqqi korporativ idarəetmə üsullarının tətbiq edilməsi yolu ilə fəaliyyətlərinin səmərəliliyinin artırılması istiqamətində həyata keçirilən tədbirlər büdcə siyasəti çərçivəsində dəstəklənəcək.

Hökumət ölkə iqtisadiyyatına investisiya cəlbində ən mühüm problemlərindən biri olan qeyri-sağlam rəqabət mühitinin aradan qaldırılması istiqamətində ciddi bir addım atmağa hazırlaşır. Söhbət uzun illərdir dəfələrlə gündəmə gətirilən, lakin real addımlar atılmayan Rəqabət Məcəlləsinin qəbulundan gedir. Artıq Məcəllənin layihəsi Milli Məclisə daxil olub və onun parlamentin payız sessiyasında qəbul olunacağı gözlənilir. Mütəxəssislərə görə, Məcəllənin qəbulu və icrası vaxtında, real olaraq təmin edilərsə, yaxın bir neçə il ərzində Azərbaycanda azad və sağlam rəqabət mühitinin böyük ölçüdə təmin olunması mümkündür. Bununla paralel olaraq məhkəmə sistemində islahatların dərinləşdirilməsi, biznes üçün öz hüquqlarını müdafiə etməyə normal bir müstəvinin formalaşdırılması da zəruri tədbirlərdən biri hesab olunur.

Bu tədbirlərin real effekti əldə olunana qədərsə dövlət özü iqtisadiyyatın investisiya ehtiyaclarını qarşılamağa məcburdur. Maliyyə Nazirliyinin açıqladığı büdcə sənədindən aydın olur ki, enerji və nəqliyyat sektoru, özünüməşğulluq və sosial müdafiənin gücləndirilməsi, gəmiqayırma zavodunun fəaliyyətinin genişləndirilməsi, su təchizatı və kanalizasiya şəbəkələrinin yenidən qurulması üzrə layihələrin maliyyələşdirilməsi üçün Azərbaycanın əməkdaşlıq etdiyi beynəlxalq maliyyə institutlarından xarici borcun cəlb edilməsi nəzərdə tutulur. 2024-2027-ci illər ərzində xarici dövlət borcu üzrə həyata keçiriləcək əsas borc ödənişləri, habelə mövcud və yeni imzalanacaq kredit sazişləri çərçivəsində istifadələr nəzərə alınmaqla, 2027-ci ilin sonuna xarici dövlət borcunun 5,4 milyard ABŞ dolları və ya ÜDM-in 6,8 faizi həcmində olacağı proqnozlaşdırılır.

2023-cü ilin sonuna isə Azərbaycanın dövlət borcunun (xarici və daxili) ümumi məbləği 26 milyard 803,6 milyon manat səviyyəsində olacağı gözlənilir ki, bu, 119 milyard 650,0 milyon manat məbləğində proqnozlaşdırılan ÜDM-in 22,4 faizini təşkil edəcək. Həmin dövrdə xarici dövlət borcunun 10 milyard 848,2 milyon manat (6 milyard 381,3 milyon ABŞ dolları) və ya ÜDM-in 9,1 faizi həcmində, daxili dövlət borcunun isə 15 milyard 955,4 milyon manat və ya ÜDM-in 13,3 faizi həcmində olacağı gözlənilir.

Parlamentdə Rəqabət Məcəlləsinin layihəsi üzrə ictimai dinləmə keçiriləcək

Xəbər verildiyi kimi, Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü ilə Rəqabət Məcəlləsinin layihəsi Milli Məclisə daxil olub. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən APA-ya verilən xəbərə görə, məcəllənin parlamentdə qəbulunun ölkə iqtisadiyyatının inkişafına, biznes mühitinin əlverişliliyinin artırılmasına göstərə biləcəyi təsir nəzərə alınaraq, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin təşəbbüsü ilə sentyabrın 26-da parlamentdə sənədin ictimai dinləməsi keçiriləcək.

Dinləmədə Milli Məclisdə təmsil olunmuş siyasi partiyaların nümayəndələri, digər millət vəkilləri, İqtisadiyyat Nazirliyinin əlaqədar vəzifəli şəxsləri, sahibkarlar assosiasiyalarının, ticarət palatalarının, QHT-lərin təmsilçiləri, ekspertlər və mütəxəssislər iştirak edəcəklər.



Xırdalanda 4-cü müəmmalı hadisə: Daha bir qız canına qıydı

Ərazidə sakinlər APA-nın müxbirinə deyib ki, hadisə zamanı 2006-cı il təvəllüdlü Arzu Oruczadə pəncərəyə çıxaraq, təxminən 1 dəqiqə ərzində telefonla kiminləsə danışıb, daha sonra isə qışqıraraq özünü binadan atıb. Həmin vaxt qızı görən mühafizə xidmətinin əməkdaşları ona mane olmağa çalışsalar da, gənc qız onlara məhəl qoymayıb.

Xırdalanda az qala silsilə hal alan bu özünəqəsdlər sakinlərdə bir çox cavabsız suallar yaradır. Gənclərin təxminən eyni yaşlarda, eyni ərazidə, eyni şəkildə özlərinə qəsd etmələri insanları vahiməyə salır. Hadisələrlə bağlı yaranan sualları çox olsa da, cavab tapa bilmirlər. Onu da qeyd edək ki, hazırda hadisə ilə bağlı Abşeron rayon Prokurorluğunda araşdırma aparılır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Dünya SAKİT

YENİ MÜSAVAT
N 170 (8306) 23 sentyabr 2023

İran nüvə silahına sahiblənsə... - müsəlman dövlətindən Tehrana xəbərdarlıq

Əli Orucov: "Düşünmürəm ki, İran nüvə dövlətinə çevrilə bilsin"
Niyaməddin Orduxanlı: "Rusiyanın dəstəyi ilə Türkiyə nüvə dövləti olmalıdır"
Kənan Novruzov: "Rəsmi Tehran, əslində, ciddi seçim və hətta risk qarşısındadır"

"Əgər İran öz nüvə proqramını uğurla inkişaf etdirsə, tezliklə Səudiyyə Ərəbistanı da nüvə bombasına sahib ola bilər".

Bu barədə Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman Əl Səud "Fox News" telekanalına müsahibəsində bildirib.

"Əgər onlar bunu əldə eləsələr, biz də əldə edəcəyik", - vəliəhd şahzadə qeyd edib. Şahzadə nüvə silahına can atmadığını, lakin "İranın nüvə proqramının başqa seçim qoymadığını" vurğulayıb.

"Biz İranın nüvə bombasına malik olduğu, bizim isə malik olmadığımız vəziyyətə imkan verməyəcəyik", - deyə Məhəmməd bin Salman əlavə edib.

Qeyd edək ki, İranla Səudiyyə arasında diplomatik əlaqələr təzəcə qaydaya düşüb. Tərəflər səfir mübadiləsi edib. Bu fonda Məhəmməd bin Salmanın xəbərdarlığı maraq doğurur. Görəsən Ər-Riyad o halda hansı yolla nüvə başlığına sahib olacaq? Bundan ötrü iki üsul var: ya onu özün istehsal etməlisən, ya da nüvə dövlətindən birindən, məsələn, ABŞ-dan xahiş etməlisən. Bəs İran atom silahına malik olarsa, digər qonşular - Azərbaycan və Türkiyənin qərarı nə olacaq və hansı varianta üstünlük verəcək. Bu məqsədlə nüvə dövləti Pakistanla anlaşmağımız mümkünmü, yoxsa ərazimizdə heç bir halda nüvə başlıqları yerləşdirməyə lüzum yox?

AMİP liderinin köməkçisi, siyasi ekspert Əli Orucov nüvə ölkəsinə çevrilməyin elə də asan məsələ olmadığını söylədi: "İranın nüvə proqramı hələ ötən əsrin 50-ci illərindən başlayır. İslam İnqilabı zamanı şahın devrilməsindən sonra bu proqram bir müddət masadan götürülsə də, sonradan yenə aktuallıq kəsb etdi. İran rəsmiləri nüvə proqramını dinc məqsədlər üçün həyata keçirəcəyini vəd etsə də, buna beynəlxalq aləm inanmır. Sirr deyil ki, Tehran nüvə enerjisi deyil, əslində nüvə silahı əldə etməklə, dünya supergüclərinin sırasına daxil olmağa və nüvə dövlətinə çevrilməyə can atır. Tehran rejiminin nüvə silahına malik olması təkcə region ölkələri, xüsusən də, İsrail üçün ciddi təhlükə deyil, həm də böyük faciə demək olardı. Bu həm də molla rejiminə dünyanı nüvə silahı ilə təhdid etmək və beləliklə də qlobal sülhə təhlükə yaratmaq imkanı verərdi. Odur ki, BMT Təhlükəsizlik Şurası üzvləri və Almaniya bu proqrama qarşı çıxdılar və uzun-uzadı danışıqlar apardılar. Həmçinin nüvə proqramından imtinaya məcbur etmək üçün İrana qarşı beynəlxalq sanksiyalar tətbiq olundu. İsrail təhlükəni daha çox hiss etdiyindən hətta radikal addımlar atmaqdan belə çəkinmədi. Nüvə proqramının elektron təminat sistemlərinə kiber hücumlar təşkil etdi, nüvə proqramında fəal rol alan alimlər zərərsizləşdirildi və s. Əvvəllər bu proqramın gerçəkləşməsi üçün Rusiya İrana dəstək versə də, beynəlxalq təzyiqlərdən və özünün də təhlükəyə məruz qalacağından ehtiyatlanan Moskva dəstəyini dayandırdı. Heç şübhəsiz ki, əgər Tehran rejimi nüvə dövlətinə çevrilərsə, bu, ilk növbədə Azərbaycan, İsrail və Səudiyyə Ərəbistanı üçün fəlakət olardı. Çünki molla rejimi bu üç dövləti özünün mövcudluğu və təhlükəsizliyi üçün əsas risk sayır. Baxmayaraq ki, Azərbaycanla üzdə münasibətləri normal saxlamaqda maraqlı görünür, yaxud da Səudiyyə Ərəbistanı ilə yumşalmalar var. Lakin dini təriqət yöndən sünni dövləti olaraq Səudiyyə Ərəbistanı, milli etnik zəmində isə türk dövləti Azərbaycanı İran daima rəqabətdə və mehriban düşmən obrazında görüb. Qardaş Türkiyə ilə isə, ortada çoxəsrlik bir mübarizə tarixi var. Belə olan halda regionda və beynəlxalq siyasətdə güc balansı İranın xeyrinə dəyişərsə, təbii ki, bu fonda adlarını qeyd etdiyim dövlətlər milli maraqlarını və təhlükəsizliklərini potensial rəqibdən qorumaq üçün onlar da müxtəlif yollar və vasitələr axtarmaq məcburiyyətində qalacaqlar. Səudiyyə Ərəbistanının da, Türkiyənin də nüvə silahına sahiblənməyə can atacağı təbii və qanunauyğun sayılmalıdır. Səudiyyə vəliəhdi şahzadə Salmanın narahatlığını da normal qarşılamaq lazımdır. Lakin nüvə silahının, yaxud da bu texnologiyanın əldə edilməsi elə də asan məsələ deyil. 1970-ci ildə qüvvəyə minən Nüvə Silahının Qarşısının Alınması haqqında bağlanmış müqavilədə nüvə silahının və texnologiyasının yayılmasına məhdudiyyətlər qoyulub və buna ciddi nəzarət həyata keçirilir. Digər tərəfdən nüvə silahı, atom bombası hər bir dövlətin ala biləcəyi qədər əlçatan silah da deyil. Məncə, nüvə silahına yiyələnmək uğrunda rəqabət onsuz da gərgin olan planetimizi daha böyük risklərə atır. Düşünmürəm ki, İran nüvə dövlətinə çevrilə bilsin və beləliklə də digər dövlətləri də belə bir təhlükəli yarışa çıxmağa təhrik edə bilsin".



BAXCP sədrinin müavini, politoloq Niyaməddin Orduxanlı hesab edir ki, İran nüvə ölkəsi olarsa, bu, bütün dünya üçün təhlükədir: "İran dövlətinin nüvə silahına sahib olması yolverilməzdir. Çünki molla rejimi açıq şəkildə terrorçuluğu və terror təşkilatlarını dəstəkləyir. Əhalisinin böyük hissəsinin yoxsulluq səviyyəsindən aşağı yaşayan bir dövlətin il ərzində milyonlarla dolları terror təşkilatlarına xərcləməsinin məqsədləri bəllidir. Belə bir qafa sahiblərinin əlinə nüvə silahı düşərsə, nəinki region üçün, bəşəriyyət üçün ciddi bir təhlükəyə çevrilə bilər. Sanki əqli zəif bir uşağın əlinə iti kəsici bıçaq verilib. Səudiyyə Ərəbistanın İranın nüvə silahına sahib olması ilə bağlı narahatçılıq keçirməsinə gəldikdə isə, başa düşüləndir. Və doğru qeyd edirlər. Ərəblər uzun illərdir ki, ABŞ-ın nəzarəti altındadır. ABŞ bütün tapşırıqlarını can-başla yerinə yetirir. Ancaq heç inanmıram ki, ABŞ müsəlman ölkəsinin nüvə dövlətinə sahib olmasında maraqlı olsun. Bu gün ABŞ-da islamafobiya çox geniş vüsət alıb. Bizim partiya uzun illərdir təklif edir ki, qardaş Türkiyənin nüvə dövlətinə sahib olması üçün Azərbaycan bütün imkanları ilə dəstək olmalıdır. Türkiyənin bunu əldə etmək imkanları var. Dünyanın ən çox nüvə başlığına sahib olan Rusiya ilə əməkdaşlıq etməlidir və Rusiyanın dəstəyi ilə Türkiyə nüvə dövlətinə sahib olmalıdır. Bu çox vacibdir. Tək Türkiyə üçün yox, bütövlükdə türk dünyası üçün önəmli hadisə olardı".

Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin eksperti Kənan Novruzov cənub qonşumuzun bu niyyətinə çatmasına imkan verilməyəcəyini düşünür: "Öncə onu deyək ki, son zamanlar İranla Səudiyyə Ərəbistanı arasında son zamanlar normallaşmağa başlayıb. Bu, yaxşı haldır. Amma İranın nüvə silahına sahib olması tərəflər arasında gərginliyin bərpası ilə nəticələnə bilər. Əlbəttə, Səudiyyə Ərəbistanı məsələyə səssiz yanaşmayacaq. Əgər İran nüvə silahına sahiblənərsə, Səudiyyə ilə ABŞ arasında əlaqələrin daha da inkişafı gözlənilən ssenaridir. Azərbaycan və Türkiyəyə gəldikdə isə, bu, bizim üçün də arzuolunan məsələ deyil. Ən azından ona görə, rəsmi Tehran sürüşkən xarici siyasət yeridir. İranın addımlarını proqnozlaşdırmaq çətindir. Tehran Bakı və Ankara ilə yenidən sərt ritorika ilə danışmağa cəhd edərsə, İranın nüvə silahına sahiblənməsi əlavə problemlərlə nəticələnə bilər. Bu mənada biz də məsələni xoş qarşılamayacağıq. Üstəlik, İranın nüvə silahından sırf müdafiə məqsədilə istifadə edəcəyinə dair ehtimal edilən iddialar qətiyyən inandırıcı olmayacaq. İranın radikal siyasəti çoxlarına məlumdur. Bəlli olduğu kimi, Rusiya nüvə silahına malikdir. İranın da nüvə silahına sahiblənməsi dünyadakı qütbləşməni sürətləndirməklə yanaşı, həm də bu iki şərq ölkəsinin Qərbə qarşı mübarizəsinin yeni mərhələyə keçməsi kimi qiymətləndirilməlidir. İranın nüvə silahına sahib olmasını beynəlxalq ictimaiyyət də yaxşı qarşılamayacaq. Bu mənada rəsmi Tehran əslində ciddi seçim və hətta risk qarşısındadır. Nüvə silahına sahib olması istiqamətindəki addımlar molla rejiminə asan başa gəlməyə bilər".

❑ **Cavanşir ABBASLI,**
"Yeni Müsavat"



Dodon: "Sandu Qərbi məmnun etmək üçün Moldovada xaos yaradır"

Moldova prezidenti Maya Sandu Qərbi məmnun etmək üçün ölkədə xaos yaratmağa hazırdır. Musavat.com xarici mediaya istnadla xəbər verir ki, bu fikirləri Moldovanın keçmiş rəhbəri İqor Dodon sosial şəbəkələrdə Rusiya və Mərkəzi Asiyadan olan bir qrup alimin ölkəyə buraxılmaması xəbərini şərh edərkən bildirib.

"Düşünürəm ki, indiki hökumət Qərb idarəçilərinin xoşuna gəlmək üçün hər şeyi edir. Rusiya səfirliyinin onlarla əməkdaşı NATO-nun bir neçə ölkəsindən qovulub və Maya Sandu Moldovada da eyni şeyi edib. Qərbə xoş gəlmək istəyirlər, ona görə də burada xaos yaradırlar. Əgər Rusiya vətəndaşı Moldovaya daxil olmaq istəyirsə, o, ölkəyə buraxılmır və ya bir neçə saat gömrükdə saxlanılır", - Dodon bildirib.

Bundan əvvəl məlum olmuşdu ki, Dnestryanı bölgədə rus dili üzrə konfransa gedən Rusiya və Mərkəzi Asiyadan olan bir qrup alim Moldova ərazisinə buraxılmayıb. Alimlər oradan Tiraspola getmək üçün Kişinyova gəliblər, lakin onlar ölkəyə buraxılmayıb, pasportları və baqajları götürülüb, sonra isə hava limanında kilidlənib.

Rusiya Xarici İşlər Nazirliyi Kişinyovun hərəkətlərini "düşmən addımı" adlandırıb. İdarənin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, Moldova hakimiyyəti MDB ölkələrinin humanitar sahədə sıx əməkdaşlığına xələl gətirməyə çalışır.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 170 (8306) 23 sentyabr 2023

Vergi yükü azaldılacaq - kimlərə şamil olunur?

Eldəniz Əmirov: "Güzəştlər aztəminatlı təbəqənin gəlirlərindən vergi yükünün azaldılmasına xidmət edə bilər"

Əhalinin vergi yükü azaldılacaq. Bu barədə İqtisadi Şuranın vergi və gömrük qanunvericiliyi aktlarına təklif olunan dəyişikliklərə həsr olunmuş iclasında bildirilib.

İclasın gündəliyində 2024-cü ilin büdcə-vergi siyasəti çərçivəsində hazırlanmış vergi və gömrük sahəsində güzəşt və azadolmaların qiymətləndirilməsi, onun nəticələrinə əsasən vergi və gömrük qanunvericiliyi aktlarına təklif olunan dəyişikliklər, eləcə də Vergi Məcəlləsinə edilən dəyişiklik layihəsinə sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılması, vergi nəzarəti mexanizminin və vergi inzibatçılığı tədbirlərinin təkmilləşdirilməsi və vergitutma bazasının genişləndirilməsi üzrə dəyişiklikləri əhatə edən istiqamətlər və digər məsələlər geniş müzakirə olunub.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla vergi və gömrük qanunvericiliyi aktlarına təklif olunan dəyişikliklər barədə aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.



Bəs, görəsən, burada hansı yüklərdən azad edilməni proqnozlaşdıra bilərik?

Bir neçə ildir insanları xidməti müqavilələr üzrə vergilərin yüksək olması da narahat edir. Xeyli şəxs hazırda xidməti müqavilə ilə çalışır və onlar 100-150 manatlıq xidmət göstərəndə bunun minimum 70 manatını vergi tutur. Bu məsələ də nəzərə alına bilərmi?

Yeri gəlmişkən, 2020-ci ildən Dövlət Vergi Xidmətində "Əmək münasibətlərinin şəffaflaşdırılması sahəsində vergi nəzarətinin gücləndirilməsi barədə" Konsepsiya təsdiq edilib. Qeyri-formal məşğulluğun aradan qaldırılması tədbirlərinə əmək münasibətlərinin şəffaflaşdırılması, qeyri-leqal iş yerləri və əmək haqlarının "ağardılması" məqsədilə boz zonaların müəyyən edilməsi də daxildir. Həmçinin əmək müqaviləsi bildirişlərində əsas iş yeri üzrə tam iş vaxtı işləyən və əməkhaqqı məbləğini 345 manatdan az qeyd edən vergi ödəyiciləri və ay ərzində işçi sayını azaltmış riskli vergi ödəyicilərinin müəyyənləşdirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər görülür. Qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində keçirilmiş vergi nəzarəti tədbirlərindən sonra işçilərin aktiv əmək müqavilələrinin təhlili həyata keçirilir.

İqtisadçı ekspert Eldəniz Əmirov mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, 2024-cü ildə büdcə gəlirləri siyasəti əsasən 6 istiqamətdə özünü göstərib: "Bunlardan biri sosial xarakterli güzəştlər vasitəsilə əhalinin vergi yükünün azaldılmasıdır. Digəri sahibkarlıq subyektinin vergi yükünün azaldılması və sahibkarlıq fəaliyyətinin təşviq edilməsidir. Üçüncü istiqamət vergi nəzarət məxanizminin təkmilləşdirilməsi və vergitutma bazasının genişləndirilməsidir. Dördüncü vergi inzibatçılığının təkmilləşdirilməsi, daha sonra vergi və gömrük sahəsini, bu sahədə olan vergi və gömrük daxilolmalarına olan güzəştlər, nəhayət altıncısı vergi ödənişlərinin təkmilləşdirilməsidir. Burada təkcə güzəştlər deyil, eyni zamanda vergitutma bazasının genişləndirilməsindən söhbət gedir".

Ekspert əlavə edib ki, təbii olaraq güzəştlər də nəzərdə tutulur: "Amma vergitutma bazası genişləndirilmədən güzəştlərin olması mümkün deyil. Çünki elə büdcə siyasəti yoxdur ki, vergi daxilolmaları büdcədə azalsın. Vergi daxilolmaları strateji hədəf olaraq büdcədə azalmırsa və vergilərin həcmi artmalıdırsa, o zaman vergi güzəştləri ilə paralel elə sahələr, elə istiqamətlər olmalıdır ki, bu güzəştləri kompensasiya etsin və əlavə artımı da təmin etsin. Buna görə də vergi bazasının genişləndirilməsi məsələsi var. Amma konkret olaraq hansı sahələrə güzəşt ola bilər? Çox güman ki, bu güzəştlər sosial istiqamətləri əhatə edəcək. Sosial təbəqədə aztəminatlı təbəqənin gəlirlərindən vergi yükünün azaldılmasına xidmət edə bilər. Eyni zamanda sahibkarlara yönəlik vergi güzəştləri mümkündür. Təəssüf ki, biz bunun detallarını bilmirik, hələ açıqlanmayıb. Amma böyük ehtimal elə sahələr var ki, bu sahələrə vergi gözəştlərinin olmasına ehtiyac var. Misal üçün, emala yönəlik fəaliyyətlə bağlı olan sahələrə ehtiyac var. Elə vasitələr var ki, onlara ƏDV-nin tətbiq olunması onun qiymətini yuxarı formalaşdırır və alıcılıq qabiliyyəti aşağı olanlar üçün əlçatan olmur. Bunlara müəyyən ƏDV güzəştləri oluna bilər. Bunlar təbii ki, ehtimallardır".

O ki qaldı az vəsaitin aldığın zaman daha yuxarı vəsaitin ödənilməsinə, əldə edilmiş 100-150 manata görə 70-80 manatın vergi olaraq tutulmasına, Eldəniz Əmirov qeyd etdi ki, bu vergi daxil olması kimi qəbul edilməməlidir: "Bu Sosial Müdafiə Fonduna olan ödənişdir. Qanunvericiliyin tələbinə görə aktiv VÖEN-i olan təsərrüfat subyekti şəxs minimum əmək haqqının 22 faiz həcmində Sosial Müdafiə Fonduna ödəniş edir. Minimum əmək haqqı da 345 manatdır. Təqribən onun 22 faizi 75 manat 90 qəpik edir. 1.5 faiz işsizlik sığortasına görə ödənişdir. 1.5 faiz də icbari sığortaya edilən ödənişdir. Nəticədə 25 faiz alınır. Minimum əmək haqqının da 25 faizi məhz bu ödənişlərdir. Bu da təqribən 87 manat edir. Nəticədə də belə alınır ki, insan yüz manat qazandığı zaman 87 manat vergi verir. Əslində bu vergi deyil, amma insan həmin ay ərzində 500 manat da qazansaydı, yenə də o 87 manatı verəcəkdi. Sadəcə o 500 manatın 14 faizini vergi olaraq verməli idi".

Qeyd edək ki, əmək bazarında qanuni münasibətlərin bərqərar olması üçün İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən müxtəlif nəzarət tədbirləri həyata keçirilir. İşçi ilə əmək müqaviləsi bağlanılmadan işə cəlb edildikdə işəgötürənlərə münasibətdə ciddi məsuliyyət tədbirləri də tətbiq edilir. İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsinə əsasən, fiziki şəxslər 1000 manatdan 2000 manatadək, vəzifəli şəxslər 3000 manatdan 5000 manatadək, hüquqi şəxslər 20000 manatdan 25000 manatadək cərimə edilir. Vergi Məcəlləsinin 58.10-cu maddəsinə əsasən, işəgötürənə hər bir şəxs üçün təqvim ili ərzində birinci dəfə 2000 manat, ikinci dəfə yol verdikdə 4000 manat, üç və daha çox dəfə yol verdikdə 6000 manat cərimə nəzərdə tutulub. Cinayət Məcəlləsinin 162-1-ci maddəsinə əsasən, 10 nəfər və 10-dan çox işçinin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi 7000 manatdan 10000 manatadək miqdarda cərimə və ya 2 ilədək müddətə islah işləri və ya 2 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 2 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

❑ **Afaq MİRAYİQ,**
"Yeni Müsavat"



Bu il Azərbaycana ötən illə müqayisədə 33,8 faiz çox əcnəbi gəlib

2023-cü ilin yanvar-avqust aylarında Azərbaycan Respublikasına dünyanın 183 ölkəsindən 1343,7 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 33,8 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

APA xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsinin məlumatında bildirilib.

Qeyd edilib ki, gələnlərin 31,7 faizi Rusiya Federasiyası, 17,7 faizi Türkiyə, 7,5 faizi İran, 4,9 faizi Hindistan, 4,7 faizi Gürcüstan, 4,4 faizi Səudiyyə Ərəbistanı, 2,6 faizi Qazaxıstan, 2,4 faizi Pakistan, 2,1 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,8 faizi Özbəkistan, 1,6 faizi İsrail, hər birindən 1,5 faiz olmaqla Küveyt və Ukrayna, 1,4 faizi Belarus, 1,2 faizi Türkmənistan, 1,1 faizi Böyük Britaniya, 11,9 faizi digər ölkələrin vətəndaşları olub. Gələnlərin 69,9 faizini kişilər, 30,1 faizini qadınlar təşkil edib.

Ötən ilin eyni dövrü ilə müqayisədə Çindən gələnlərin sayı 8,2 dəfə, Türkmənistandan - 3,2 dəfə, Hindistandan - 2,4 dəfə, Özbəkistandan - 1,8 dəfə, Qazaxıstandan - 1,8 dəfə, Belarusdan - 1,7 dəfə, Rusiya Federasiyasından - 1,6 dəfə, İtaliyadan - 1,5 dəfə, ABŞ-dan - 39,5 faiz, İsraildən - 39,2 faiz, Gürcüstandan - 32,9 faiz, Böyük Britaniyadan - 27,0 faiz, Küveytdən - 22,3 faiz, Türkiyədən - 19,6 faiz, Almaniyadan - 18,6 faiz, Birləşmiş Ərəb Əmirliklərindən - 11,8 faiz, Ukraynadan - 5,1 faiz artıb.

2022-ci ilin yanvar-avqust ayları ilə müqayisədə MDB ölkələrindən gələnlərin sayı 1,6 dəfə artaraq 549,4 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 37,8 faiz artaraq 67,6 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 10,2 faiz azalaraq 228,4 min nəfər olub.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 71,9 faizi hava, 26,7 faizi dəmir yolu və avtomobil, 1,4 faizi isə dəniz nəqliyyatından istifadə edib.

2022-ci ilin yanvar-avqust ayları ilə müqayisədə xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının ümumi sayı 23,0 faiz artaraq 1209,0 min nəfər olmuşdur. Rusiya Federasiyasına gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 1,5 dəfə, Gürcüstana gedənlərin sayı 33,6 faiz, Türkiyəyə gedənlərin sayı 13,7 faiz artmış, İrana gedənlərin sayı 20,0 faiz azalmışdır. Ölkə vətəndaşlarının 44,3 faizi Türkiyəyə, 21,3 faizi Rusiya Federasiyasına, 9,1 faizi Gürcüstana, 7,4 faizi İrana, 17,9 faizi digər ölkələrə səfər edib. Gedənlərin 65,1 faizini kişilər, 34,9 faizini qadınlar təşkil edib.

2023-cü ilin yanvar-avqust aylarında xarici ölkələrə səfər edən Azərbaycan Respublikası vətəndaşlarının 68,6 faizi hava, 28,8 faizi dəmir yolu və avtomobil, 2,6 faizi isə dəniz nəqliyyatından istifadə edib.

YENİ MÜSAVAT

Son səhifə

N 170 (8306) 23 sentyabr 2023

Sentyabr




Amerikalı cütlük təsadüfən evlərinin bağçasında sümüklə dolu çamadan tapdı

Amerikalı cütlük təsadüfən evlərinin bağçasında sümüklə dolu çamadan tapıb. ABŞ-dən olan Rebekka-Linn Ekols "TikTok" hesabında bu qorxulu tapıntıdan danışıb. Ekols bildirib ki, əri ağac əkmək üçün çuxur qazarkən içində sümüklər olan çamadan tapıb. O, çamadanın çərçivəsinin parçalarına və parça qalıqlarına rast gəlib, daha sonra isə kökə bənzəyən bir şey tapıb. Onu torpaqdan çıxarmaq üçün əyiləndə əlində sümük olduğunu görüb. Kişi dərhal polisə zəng vurub.

Sentyabrın 16-da evinin bağçasında polis əməkdaşlarının olduğunu göstərən ilk videonu paylaşıb. Bir neçə gün sonra qadın başqa bir video paylaşıb. Həmin gün Ekolsların bağında artıq 12 polis əməkdaşı işləyib. Hüquq-mühafizə orqanlarının əməkdaşları torpaqda kəllə sümüyünü tapmayıb və sümüklər DNT testinə göndərilib ki, bu da onların insana, yoxsa heyvana aid olduğunu müəyyənləşdirməyə kömək edəcək. Cütlük əvvəlki evləri qasırğa nəticəsində dağıldıqdan sonra 7 ay əvvəl Floridada yeni evə köçüb. Onlardan əvvəl orada bir ilə yaxın başqa bir ailə yaşasalar da, daxili münaqişələr səbəbindən həmin evdən köçüblər. Daha əvvəl isə ev ərazidə çoxlu sayda heyvan saxlayan və patoloji xəstəlikdən əziyyət çəkən insanlara məxsus olub.

Polis ev sahiblərindən hər hansı birinin tutularaq həbs edilməmişdən əvvəl ərazidə fəaliyyət göstərən Oadis Uayt adlı manyakla əlaqəsinin olub-olmadığını araşdırır. Xatırladaq ki, manyak O.Uayt 2011-ci ildə ömürlük həbs cəzasına məhkum edilib.

Litvada bazarlarda vaxtı keçmiş məhsullar da satılacaq



Litva vaxtı keçmiş məhsulların satışına icazə verməyi planlaşdırır. Qanun layihəsi hazırda Seymdə nəzərdən keçirilir. Bildirilir ki, layihə müəllifləri ölkədə ərzaq israfını bu yolla azaltmaq istəyirlər.

Məlumata görə, vaxtı ötsə də, makaron, qəhvə, un, şəkər və günəbaxan yağı istifadəyə yararlı hesab ediləcək. Hesab olunur ki, bu, aztəminatlı litvalılara pula qənaət etməyə imkan verəcək, satıcılar isə məhsulu satmaq və ya xeyriyyəçilik üçün ianə vermək seçimi edə biləcəklər.

İlanla sörfinq edən şəxs cərimələnib

Evdə saxladığı ilanla sörfinq edən şəxs cərimə olunub. Səlahiyyətlilər buna səbəb kimi heyvanın daimi qeydiyyat yerindən çıxarılaraq okeanda gəzintiyə aparılmasına icazə verən sənədin olmamasını göstəriblər. Heyvan hüquqları müdafiəçiləri isə belə gəzintilərin balıqlarda stress yarada və gözlənilməz davranışlara səbəb ola biləcəyini söyləyiblər. Sözügedən şəxs özünü müdafiə edərək ilanın sörfinq etməyi xoşladığını və artıq onunla bir neçə dəfə okeana çıxdığını bildirib. Amma bu, onu 1500 dollar cərimədən xilas edə bilməyib.

Yaponiyalı güləşçilər sərnişinlərin gözü qarşısında döyüşdülər

Yaponiyada peşəkar güləşçilər 290 km/saat sürətlə hərəkət edən qatarda, sərnişinlərin gözü qarşısında mübarizə aparıblar. Sosial şəbəkələrdə bununla bağlı görüntülər yayılıb. Bildirilir ki, Minoru Suzuki və Sanşiro Takagi adlı idmançılar arasında döyüş Tokio-Naqoya marşrutu ilə hərəkət edən qatarda baş tutub. Bunun üçün təşkilatçılar bütöv bir vaqonu icarəyə götürüblər və hər kəsi məşhur idmançıların döyüşünü öz gözləri ilə görməyə dəvət ediblər. Məlumata görə, bütün yerlər cəmi yarım saata satılıb. Qeyd edək ki, sonda 55 yaşlı Suzuki qalib olub. O da vurğulanır ki, videonun qəhrəmanları görüşləri üçün qeyri-adi yerlər seçmələri ilə tanınırlar. Onlar artıq kitab mağazasında və kempinq ərazisində döyüşüblər.

Bennu asteroidi Yerə "eniş" edə bilər

NASA alimləri dəfələrlə tədqiq edilən Bennu asteroidinin Yer üçün potensial təhlükə yaratdığını müəyyən ediblər. OSIRIS-REx elmi qrupu bildirir ki, əsr yarımdan sonra - təxminən 2182-ci ildə bir göy cismi Yerə "enişə" edə bilər. Məlumata görə, belə bir hadisənin baş vermə ehtimalı kifayət qədər kiçik olaraq qalır və Yerə yaxınlaşma da digər amillərdən asılı olduğundan hazırda 0,037% qiymətləndirilir. Məsələn, 2135-ci ildə Bennu planetin yanından keçməlidir, lakin cazibə qüvvəsi yarım əsr sonra Yer sakinləri üçün ölümcül nəticə verəcək şəkildə kursu dəyişə bilər.

Asteroidin təxminən 700 min kvadrat kilometr ərazini məhv edə biləcəyi qeyd olunur. Bundan başqa, tədqiqatçılar təsir enerjisinin təxminən 1200 meqaton olacağını təxmin edirlər. Müqayisə üçün qeyd edək ki, Sovet Çar Bombasının zərbə enerjisi cəmi 58,6 meqaton olaraq qiymətləndirilirdi.

Bunları bilirsizmi?

*Ay işığının bizə çatması 1,3 saniyə çəkir.

* Buqələmunların dili bədənlərindən iki qat uzundur.

* Liftdə ayna qoyulmasının əsas səbəbi qapılar açılarkən kabinənin yerində olduğunu görməkdir.

* Fillərin rəngi əslində boz deyil qızılı-torpaq rəngidir. Boz görünmələrinin səbəbi palçıqlı suların üzərilərində qurumasıdır.

* Qiymətli daşların çoxu bir neçə elementin birləşməsindən meydana gəlir, yalnız brilyant tamamilə karbondan əmələ gəlir.

* Albert Eynşteyn 9 yaşından sonra tam danışmağa başlayıb. Buna görə də ailəsi onun əqli cəhətdən qüsurlu olduğunu düşünüblər.

* "Santa Klaus"un paltarı əslində yaşıl rəngdədir. Ancaq bir kola markası onu qırmızı-ağ olaraq dünyaya tanıdıb.

* Qütb ayıları isti və nəmli mühitdə qaldıqları zaman kürklərinin rəngi yaşıl rəngə çevrilir.

* Alma, soğan və kartofun dadı eynidir. Yalnızca qoxuları fərqlidir. Əslində hamısı şirindir.

* Göytürklər turşuyan qatığın turşuluğunu azaltmaq üçün üzərinə su töküblər. Beləliklə özləri də bilmədən ayranı kəşf ediblər.

* Dünyanın ən sürətli böyüyən bitkisi bambuk ağacıdır. Ağac gündə 90 santimetr uzanır.

* Tüdorun hakimiyyəti dövründə İngiltərədə sıx bağlanmış korset və biləkdə çoxlu qolbaqlar bakirəlik əlaməti hesab olunurdu.

* İnsan bədənindəki əsəb impulsları saniyədə 90 m sürətlə dəyişir.

Ağızdakı təbii dişlər bizi xərçəng xəstəliyindən xilas edirmiş

Dişlərə qulluq etmək xərçəngdən qoruya bilər. Ağızda təbii dişlər nə qədər çox olarsa, xərçəngin bəzi formalarından qaçmaq şansı o qədər yüksək olar. Bu barədə Şimali Karolina Universitetinin (ABŞ) tədqiqatçıları xəbərdarlıq ediblər. Onların apardıqları araşdırmanın nəticələri Milli Xərçəng İnstitutunun Jurnalında dərc edilib. Bildirilir ki, beynəlxalq tədqiqat qrupu səkkiz ölkədən təxminən 2500 xəstənin məlumatlarını təhlil edib.

Subyektlərdən ağız sağlamlığı, o cümlədən diş ətlərinin qanaması, diş fırçalama tezliyi, ağız yuyucu vasitələrdən istifadə və xərçəng diaqnozundan 10 il əvvəl dişlərin sayı və diş həkiminə müraciətlərin tezliyi barədə məlumat vermələri istənilib. Statistik təhlillər göstərib ki, diş həkiminə tez-tez baş çəkən (nəzarət dövründə beş dəfədən çox) xəstələrin sağ qalma nisbəti 74 faizdir. Diş həkiminə, ümumiyyətlə, müraciət etməyənlər üçün isə bu göstərici 54 faiz olub.

Alimlər, həmçinin müəyyən ediblər ki, təbii dişləri olmayan xəstələrin 20-dən çox təbii dişi olan insanlara nisbətən sağ qalma ehtimalı 15% azdır. Onlar qeyd ediblər ki, tez-tez stomatoloqa müraciət etmək xəstəliyin daha az ölümcül olduğu və müalicə oluna bilən mərhələdə aşkarlanma şansını artırır.

Qeyd edək ki, baş və boyun xərçəngi (skvamoz hüceyrəli karsinoma - cSCC) dünyada ən çox görülən xərçəng növləri siyahısında altıncı yerdədir. Onun meydana gəlməsinin əsas səbəbləri tütün və alkoqol istifadəsi ilə əlaqələndirilir.

Paralyotla rekord hündürlüyə qalxdılar

Rusiyalı pilotlar Fyodor Konyuxov və İqor Potapkin ikinəfərlik paralyotla (paralyot - qanadı paraşüt olan kiçikmotorlu uçuş aparatı) Kabarda-Balkariyada Elbrus ətəklərindəki yayladan havaya qalxaraq dünya rekordunu yeniləyiblər. Onlar 4 728 metr hündürlüyə yüksələ biliblər. Sosial şəbəkələrdə bununla bağlı görüntülər paylaşılıb. Qeyd edilir ki, pilotlar öz rekordlarını qırmaq üçün gələn il avqust ayında geri qayıtmağı planlaşdırırlar.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d

Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Sifariş: 2438

Lisenziya N: B 114

SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəllifərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.